www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 may 2024-cü il Cümə axşamı № 93 (8466) Qiymәti 60 qәpik

**Xəbər**

## Blinkenin məktubundakı xüsusi mesaj - ABŞ səbirsizliklə nəyi gözləyir?

yazısı səh.3-də

# RUSİYANIN XANKƏNDİDƏ KONSULLUQ AÇMASI TƏHLÜKƏLİDİRMİ - OBYEKTİV BAXIŞ

Şimal qonşumuzdan verilən mesajın pərdəarxası; ekspertdən ilginc açıqlamalar; **Elçin Mirzəbəyli:** "Yaxşı olardı ki, həm Türkiyənin, həm də Rusiyanın Azərbaycandakı səfirliklərinin konsulluq idarələri gələcəkdə Şuşada, Xankəndidə, yaxud hansısa başqa bir yerdə deyil, məhz Ağdamda açılsın"




yazısı səh.9-da

## İki nazirlik qeyri-neft ixracını artırmaq təklifi verib - nələr var...

**Ekspert:** "İlk növbədə rəqabətqabiliyyətli məhsul istehsalını yoluna qoymaq, sonra"...

yazısı səh.6-da

**Gündəm**

## Müvəqqəti müttəfiqlik, məxfi məlumat və pul kanalı - hökumətdəki xain kimdir?



Xaricdəki blogerləri qidalandıran məmurla bağlı araşdırma başlayıb; prosesin sonunda kimlərinsə qoluna qandal vurulacaq

yazısı səh.4-də

## Azərbaycanla İran arasında su bölgüsü müəyyənləşdirildi, protokol imzalandı

yazısı səh.3-də

## Fələstinə görə ikiyə bölünən dünya - optimal yol...

yazısı səh.8-də

## Putindən ilginc Ukrayna açıqlaması - "parlament inqilabı" anonsu, yoxsa...

yazısı səh.12-də

## Ermənistan bu dəfə "xaçlı tələ"yə düşə bilər - sülhə qarşı dini yürüş

yazısı səh.5-də

## Paşinyan Kremlə "əlcək atdı"

yazısı səh.7-də

## Yağıntının kəndliyə vurduğu zərər getdikcə artır - çıxış yolu

yazısı səh.11-də

## Gürcüstanda proseslər kritik mərhələyə girdi - Qərbin mesajı...

yazısı səh.7-də

## Qurban bayramı gəlməmiş qiymətlər artdı

yazısı səh.10-da

## İstirahət və əyləncə mərkəzlərində təhlükəsizlik problemi - məsuliyyət kimindir?

yazısı səh.14-də



*İdris Xəlilov:*

## "Son 30 ildə ürək-damar xəstəliklərindən ölümlər qlobal miqyasda 60 faiz artıb"

yazısı səh.10-da



## Lalə Şövkətin siyasətə "liberal" qayıdışı - deputatlıq iddiası, yoxsa...

yazısı səh.4-də



## Zakir Həsənov türkiyəli həmkarı ilə görüşdü

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024



# Ceyhun Bayramov Pakistana rəsmi səfərə gedib

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasına rəsmi səfərə yola düşüb.**

XİN-dən APA-ya verilən xəbərə görə, səfər çərçivəsində nazir Ceyhun Bayramovun Pakistan İslam Respublikasının baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar, habelə digər yüksək səviyyəli rəsmilərlə görüşlərinin keçirilməsi nəzərdə tutulub.




# Dövlət Məşğulluq Agentliyinə yeni sədr təyin olundu

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinə yeni sədr təyin olunub.**

Bu barədə APA-ya nazirlikdən xəbər verilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin əmri ilə Sadiq Cabir oğlu Əliyev nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunub.

Sadiq Əliyev 1984-cü ildə anadan olub. 2001-2005-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində maliyyə-kredit ixtisası üzrə bakalavr, 2005-2007-ci illərdə magistr dərəcəsi üzrə təhsil alıb.

2006-2019-cu illərdə İqtisadiyyat Nazirliyində müxtəlif vəzifələrdə, 2019-cu ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Strateji planlaşdırma və innovasiyalar şöbəsinin müdiri vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

Ailəlidir, 3 övladı var.

Qeyd edək ki, daha əvvəl Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli idi. O, başqa işə keçməsi ilə əlaqədar işdən azad edilib.




# TikTok-da 30 nəfərə qarşı dələduzluq edən şəxs tutulub

**Müxtəlif vaxtlarda 7 nəfərin bank kartlarından 300, 900, 50, 320, 125, 338 və 100 manat olmaqla, ümumilikdə 2133 manat pul vəsaitlərinin talanması barədə polisə məlumatlar daxil olub.**

APA DİN-ə istinadən xəbər verir ki, həyatəli bilinən, dələduzluğa görə axtarışda olan 21 yaşlı Raqif Məmmədov saxlanılıb.

Araşdırmalarla onun TikTok sosial şəbəkəsində həmin şəxslərin kart məlumatlarını dələduzluq yolu ilə ələ keçirərək pul vəsaitlərini talaması məlum olub. Keçirilən tədbirlərlə əməlləri törətməkdə saxlanılan şəxs eyni üsulla daha 23 nəfərin pul vəsaitlərini talayıb.

Faktlarla bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Onun əməllərindən zərər çəkmiş digər şəxslər varsa, bu barədə polis orqanlarına müraciət edə bilərlər.

# Zakir Həsənov türkiyəli həmkarı ilə görüşdü



**Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənov qardaş ölkənin milli müdafiə naziri cənab Yaşar Gülerlə görüşüb.**

Nazirlikdən APA-ya verilən xəbərə görə, görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.



# Keçmiş məhkumdan 7 kq narkotik götürüldü

**Bakıda saxlanılan şəxsdə 7 kiloqram marixuana aşkarlanıb.**

APA Daxili İşlər Nazirliyinə istinadən xəbər verir ki, Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı həyata keçirdikləri növbəti əməliyyat zamanı əvvəllər məhkum olunmuş 1972-ci il təvəllüdlü İlqar Rəcəbov saxlanılıb.

Onun üzərindən və sərnişini olduğu avtomobildən tərkibi psixotrop maddələrlə zənginləşdirilən 7 kiloqram narkotik vasitə marixuana aşkarlanıb. İ.Rəcəbov narkotikləri sosial şəbəkələrdə tanış olduğu şəxsiyyəti istintaqla araşdırılan xarici ölkələrdən birinin vətəndaşından satmaq məqsədilə əldə etdiyini bildirib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Araşdırmalar davam etdirilir.

# İki prokuror vəzifəsindən azad olundu




**Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Fikrət Mahmudovun və Baş Prokurorluğun Rayon (şəhər) məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Sumqayıt Apelyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri üzrə prokuroru Kamran Əhmədovun qulluq keçmələrinə xitam verilib.**

Modern.az xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.

Bildirilib ki, sözügedən şəxslər qulluqda olmanın yaş həddi ilə əlaqədar qulluq keçmələrinə xitam verilib.

Bildirilib ki, baş prokuror Kamran Əliyev prokurorluqda uzunmüddətli qüsursuz və səmərəli fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətlərinə görə onlara "Prokurorluğun fəxri işçisi" döş nişanı və Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanını təqdim edilib.



# Paşinyan: "Sülh sazişinin əsas prinsipləri razılaşdırılıb"

**Hər gün sülh sazişinin (Azərbaycanla) imzalanması üçün əla fürsətdir.**

APA xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, məsələ bundadır ki, sülh müqaviləsinin mətni ətrafında razılaşmalar əldə edilməlidir. Paşinyan buna nail olunacağına dair ümidini ifadə edib: "Daha doğrusu, bu razılaşmalar 6 oktyabr 2022-ci ildə Praqada, sonra Soçidə, daha sonra isə Brüsseldə əldə edilib. Sazişin əsas prinsipləri razılaşdırılıb, bütün bunları sülh sazişinin mətninə köçürmək qalır. Hesab edirəm ki, bu işi çox tezliklə başa çatdırmaq imkanımız var. Müqavilənin imzalanma yeri və tarixi əlavə müzakirə ediləcək başqa bir məsələdir".

# "Qəzzada döyüş bu il bitməyəcək" - İsrail MTX rəhbəri

**Qəzzada döyüş bu il bitməyəcək.**

Modern.az xarici KİV-lərə istinadən xəbər verir ki, bu barədə İsrail Milli Təhlükəsizlik Xidmətinin rəhbəri, baş nazir Benyamin Netanyahunun milli təhlükəsizlik üzrə müşaviri Tzaçi Haneqbi bildirib.

O qeyd edib ki, hazırda İsrail Müdafiə Qüvvələri Qəzza zolağı ilə Misir arasındakı bufer zonası olan Fildelf marşrutunun 75%-nə nəzarət edir.

"Qəzzada döyüşlər ən azı daha 7 ay davam edəcək", - yəhudi rəsmi əlavə edib.

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

# Blinkenin məktubundakı xüsusi mesaj - ABŞ səbirsizliklə nəyi gözləyir?

**Yusif Bağırzadə:** "Bu, Ağ Evin Cənubi Qafqaz siyasətində Azərbaycanın maraqlarını nəzərə almalı olduğunu dərk etdiyini göstərir"
**İlyas Hüseynov:** "ABŞ artıq yeni reallıqları anlayır, qəbul edir"



**Müstəqillik Günü ilə bağlı Azərbaycan Prezidentinə dünya ölkələrinin hamısından (qərəzli Fransa istisna) təbrik məktubları gəldi. Bu məktublarda diqqəti xüsusi cəlb edən bir məqam bütün dövlətlərin Azərbaycanla əlaqə və əməkdaşlıqları dərinləşdirmək niyyətinin vurğulanmasıdır.**

ABŞ dövlət katibi Entoni Blinkenin də Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə təbrik məktubunda eyni məzmun yer alır. Blinkenin bəyanatında qeyd edilir ki, "son 32 ildə təhlükəsizlik və enerji sahəsində əməkdaşlıq üzərində tərəfdaşlıq qurduğumuz Azərbaycanla əlaqələrimizi yüksək qiymətləndiririk": "Biz bu sahələrdə, həmçinin iqlim dəyişikliyi və yaşıl enerjiyə keçid kimi getdikcə daha kritikləşən qlobal problemlərlə bağlı fəaliyyətimizi dərinləşdirmək imkanını yüksək qiymətləndiririk. Birləşmiş Ştatlar Azərbaycanın Bakıda COP29-a ev sahibliyi etməsini alqışlayır və biz uşaqlarımızı və nəvələrimizi daha dayanıqlı və davamlı iqlim gələcəyi təmin etmək məqsədilə COP-u uğurlu etmək üçün Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyirik. Əməkdaşlığımız Azərbaycanın demokratik inkişafına və Azərbaycan konstitusiyasına uyğun insan hüquqlarına və əsas azadlıqlarına hörmətlə bağlı öhdəliyimizlə paralel davam edəcək. Birləşmiş Ştatlar Ermənistan və Azərbaycan arasında davamlı və ləyaqətli sülhün əldə edilməsi istiqamətində görülən işləri alqışlayır və biz bu səyləri dəstəkləməyə, uzun müddətdir davam edən münaqişədən sonra yeni səhifəni açmaq və daha yaxşı gələcək qurmaq üçün hazırıq. Biz əlaqələri gücləndirəcək və bütün regiona iqtisadi fayda verəcək bu məqsədə tam sadiqik. Azərbaycanın müstəqilliyi şərəfinə bu mühüm bayramda mən Birləşmiş Ştatların Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə dəstəyini bir daha təsdiqləyirəm".

Nəzərə çatdıraq ki, bir müddət öncə Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bütün gücləri, o cümlədən Minsk Qrupunun həmsədrləri olmuş ABŞ və Fransanı dövlətimizin bölgədə yaratdığı ədalətli reallıqları qəbul etməyə dəvət etmişdi. Bu kontekstdə Prezident Rusiyanı nümunə kimi göstərmişdi. Bildirmişdi ki, hər hansı təzyiq, təhdidə boyun əyilməyəcək, ABŞ və Fransa Cənubi Qafqazın inkişafını istəyirsə, regionun lider dövləti Azərbaycanla əməkdaşlıq etməlidir.

Blinkenin son məktubundan sonra düşünmək olarmı ki, ABŞ da artıq reallıqları qəbul edir?

**Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan regionun lider dövləti olaraq hər zaman aparıcı güclərin diqqət mərkəzində olub. İkinci Qarabağ savaşı və əldə etdiyimiz qələbədən sonra isə ölkəmizin nüfuzu daha da artıb:** "Regionda beynəlxalq təşəbbüslərin müəllifi olan Azərbaycan əldə etdiyi uğurlar sayəsində dünyanın siyasi xəritəsində öz statusunun yüksəlməsinə müvəffəq olub. Elə 28 May Müstəqillik Günü ilə bağlı çoxlu sayda ölkə rəhbəri tərəfindən yazılmış təbrik məktubları da Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzunun və genişlənən əməkdaşlığın ən bariz göstəricisidir. Məhz elə bu nüfuzun və iqtisadi potensialın nəticəsidir ki, Azərbaycan bir çox ölkə rəhbərləri tərəfindən strateji tərəfdaş kimi dəyərləndirilir və ölkəmizlə əməkdaşlığın davamlı olmasında maraqlı olduqları qeyd olunur.

ABŞ prezidenti və ardınca ABŞ dövlət katibi Blinkenin təbrikləri isə Azərbaycan və ABŞ arasında etibarlı münasibətlərin inkişafının göstəricisi hesab olunmalıdır. Təbriklərin mətnindən də göründüyü kimi, ABŞ, Azərbaycanla ikitərəfli münasibətlərin çoxşaxəliliyinə xüsusi önəm verir. ABŞ prezidentinin ölkə başçımıza göndərdiyi məktubda dünyanın supergücünün dövlətimizə və xalqımıza açıq mesajları var. Həm Co Baydenin, həm də Entoni Blinkenin təbriklərində ABŞ-ın Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha təsdiq etməsi xüsusi olaraq qeyd edilməlidir".

**Politoloq qeyd etdi ki, ümumiyyətlə, həm bu təbriklər, həm də Vaşinqton şəhərinin meri Myuriel Bauzerin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 106-cı ildönümü ilə bağlı xüsusi bəyannamə imzalaması ABŞ-ın ölkəmizə olan marağının göstəricisi hesab olunmaqla yanaşı, həm də Ağ Evin Cənubi Qafqaz siyasətində Azərbaycanın maraqlarını nəzərə almalı olduğunu dərk etdiyini göstərir:** "Bütün təzyiqlərə baxmayaraq ölkəmizin öz müstəqil siyasətində heç kimə boyun əyməyəcəyini artıq hər kəs dərk edir və qəbul edir. Artıq supergüclər də anlayırlar ki, Cənubi Qafqaza yol ancaq Azərbaycanla dost olmaqdan keçir.

Bütün sadalananlar Azərbaycanın regionda yeni reallıqlar yaratdığının Rusiya, ABŞ, Çin və digər güclər tərəfindən qəbul olunduğunu növbəti dəfə nümayiş etdirmiş olur".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov isə bildirdi ki, müstəqillik günü ilə bağlı dünyanın böyük dövlətlərinin böyük əksəriyyəti Azərbaycana təbriklər ünvanladı:** "Burada diqqət çəkən bir sıra məqamlar mövcuddur. Xüsusilə ABŞ prezidenti Baydenin və dövlət katibi Blinkenin təbrik məktubları ayrı-ayrılıqda oldu. Bu məktublarda bir sıra paralellər, oxşar cəhətlər olsa da əsas məqam bundan ibarətdir ki, Azərbaycan təhlükəsizlik sahəsində ciddi töhfələr verir, hətta ABŞ-la çiyin-çiyinə Azərbaycanın təhlükəsizlik üçün vuruşması qeyd olunur. Cənab Prezident İlham Əliyev də öz çıxışında bildirmişdi ki, Fransa, ABŞ və digər dövlətlər regiondakı yeni reallıqları qəbul etməli və dövlətimizlə əməkdaşlığa çalışmalıdır. Belə görünür ki, Azərbaycanla ABŞ arasında bir sıra ziddiyyətlər, soyuq münasibətlər artıq siyasi gündəlikdən çıxır. Eyni zamanda Azərbaycan diplomatiyası Vaşinqtona izah edə bildi ki, əgər Ermənistana və onun baş naziri Nikol Paşinyana Vaşinqton dəstək vermək istəyirsə, bu, onların öz daxili işidir, lakin Azərbaycanla bu münasibətlər Ermənistan-ABŞ münasibətlərindən kənarda inkişaf etməlidir və Azərbaycanı heç bir vəchlə aressiv dövlət kimi təqdim etmək olmaz. Bu, çox mühüm bir tezisdir. Çünki biz gördük ki, bizə qarşı məhz erməni maraqlarından qaynaqlanan fikirlər irəli sürülürdü. Ancaq Bakı ilə Vaşinqton arasında keyfiyyətcə yeni münasibətlər sisteminə daxil olunmalıdır. ABŞ-ın Azərbaycandakı səfirinin də bu ay Şuşaya səfər eləməsi diqqətə alınmalı məqamdır. Bu da onun göstəricisi idi ki, ABŞ artıq yeni reallıqları anlayır, qəbul edir. Artıq yalnız əməkdaşlıq üçün münbit şərait var. Bu münbit şəraitdən istifadə edib ikitərəfli münasibətləri yaxınlaşdırmaq əsas məqsəddir. Qarşıdakı dönəmdə Azərbaycan təbii ki, ABŞ-la münasibətlərin inkişaf trayektoriyasına nəzər salacaq. Çox istərdik ki, bu münasibətlər regionun güclü dövləti Azərbaycanla ədalətli, şəffaf, səmimi olsun".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Azərbaycanla İran arasında su bölgüsü müəyyənləşdirildi, protokol imzalandı

**Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan Respublikasının və İran İslam Respublikasının daimi fəaliyyət göstərən Birgə Komissiyasının 53-cü görüşü İranın Təbriz şəhərində keçirilib.**

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən APA-ya verilən xəbərə görə, Azərbaycan-İran Birgə Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda agentliyin, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Naxçıvan MR-in aidiyyəti təşkilatlarının nümayəndələri iştirak ediblər.

Görüşdə bir sıra məsələlər müzakirə edilib. Belə ki, Araz su anbarının iş rejimi və iki ölkə arasında su bölgüsü müəyyənləşdirilib, Araz çayında su və enetgetika ehtiyatlarından birgə istifadə üzrə müvafiq bölgü cədvəlləri hazırlanıb və protokol imzalanıb.

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

# Müvəqqəti müttəfiqlik, məxfi məlumat və pul kanalı - içəridəki xain kimdir?

## Xaricdəki blogerləri qidalandıran məmurla bağlı araşdırma başlayıb; prosesin sonunda kimlərinsə qoluna qandal vurulacaq

**Hökumət strukturlarında müxalifətə maliyyə dəstəyi verən, informasiya sızdıran, onun vasitəsilə hakimiyyətdaxili rəqiblərini "vurmağa" çalışanlar həmişə olub - dövlət müstəqilliyimizi bərpa etdiyimiz ildən bu günə qədər.**

Müxalifət düşərgəsində bu, məmnunluqla qarşılanır və imkanlı məmurların "demokratiyaya töhfəsi" sayılır.

İqtidar düşərgəsində isə bu hərəkətin adı daha konkretdir: xəyanət.

O cür adamlar özləri isə bunu nə "demokratiyaya töhfə" hesab edirlər, nə də "dövlətə, rəhbərə xəyanət". Onlara görə, bu, sadəcə, öz oyununu oynamaq, öz gələcəyini düşünmək, "odioz qüvvələri zərərsizləşdirmək", "yüksək vəzifələri yaxşı adamların tutmasına çalışmaq"dır.

Göründüyü kimi, müxalifətə maliyyə və informasiya sızdırmaq üçmənalı şəkildə qiymətləndirilir.

Keçmiş vaxtlarda parlamentin spiker olmaq üstündə bir-birini vurub əldən salan nazirlər vardı, mərhum prezident Heydər Əliyev onların ikisini də kənarda qoydu, həmin vəzifəyə hüquq professorunu layiq gördü.

10-15 il öncə baş nazir olmaq üstündə çarpışan nazirlər də qıraqda qaldı, bu vəzifəni adı korrupsiyada hallanmayan, şəxsi iddia sərgiləməyən şəxslər tutdu. Çarpışanların bir-birinə qarşı apardıqları media mübarizəsi, qara piar kampaniyası hədər getdi.

Yeni hakimiyyətin daxilindən kənara informasiya və pul sızdırmağın, müxalifətin hansısa qanadı ilə müvəqqəti müttəfiq olmağın əsas məqsədi, birmənalı olaraq, ya kimdənsə qisas almaqdır, ya da başqalarından önə keçməkdir.

Hazırda adları çəkilməyən bəzi qüvvələrin xaricdə yaşayan və ümumilikdə hakimiyyətə qarşı hər cür həqarət dolu çıxışlar edən şəxslərlə işbirliyinə getmələri barədə informasiyalar dolaşır.

Bunu dilə gətirənlərdən biri Əfqan Muxtarlıdır. O, intensiv şəkildə davam edən sərt və təhqiramiz çıxışları ilə tanınan bloger Tural Sadıqlını ittiham edərək, deyib ki, Tural özü və atası xaricdə dövlət qurumlarından birinin adı açıqlanmayan məmuru ilə görüşüb.

Bu ittihamı irəli sürərkən Ə.Muxtarlının hədəfi heç də hakimiyyət strukturlarındakı "göstəbək"i ifşa etmək deyil, o, bu sözlərlə Tural Sadıqlını gözdən salmağa, onun haqqında şübhə yaratmağa çalışır. Çünki "müxalifətin alovlu tribunu" olmaq, fondlardan "Azərbaycan hakimiyyətini tənqid edənlər"ə ayrılan qrantlara sahiblənmək məsələsində Tural Sadıqlı Əfqan Muxtarlının üzv olduğu sektaya rəqibdir.

Ə.Muxtarlıda T.Sadıqlının hansı məmurla görüşməsi barədə səhih informasiya vardısa, o, bunu açıqlaya bilərdi. Amma o, belə etmir, hədəf taxtasına məmuru yox, T.Sadıqlını çıxarır. Bu da o deməkdir ki, Ə.Muxtarlının istəyi müxalifətə pul və informasiya sızdıran məmurun T.Sadıqlı ilə yox, onunla, ona yaxın qrupla "işləməsi"nə nail olmaqdır.





T.Sadıqlı da ona borclu qalmayıb, deyib ki, o, ümumiyyətlə, hökumət rəsmilərinin simasında hökuməti tənqid etməyə üstünlük verir, son altı ayda bir neçə dəfə xarici mediaya müsahibə verməkdən imtina edib.

Azərbaycan hakimiyyətinə maraqlı olan məqam isə heç də söz savaşına çıxanlardan hansının - Turalın, yoxsa Əfqanın haqlı olması deyil. İqtidar komandasını hakimiyyət strukturlarında müxalifətlə, xaricdəki tənqidçilərlə işbirliyində olan məmurların olub-olmaması maraqlandırır.

Prinsipcə, belələri ola bilər və onların mövcudluğu hakimiyyət üçün xoşagəlməz və təhlükəlidir. "Ocaq başındakı düşməni" heç yerdə sevmirlər və ifşa edib zərərsizləşdirirlər.

İndiyədək olan bir çox hadisələr göstərir ki, ortada nəsə bir kanal var. Çünki yalnız hakimiyyət orqanlarının biləcəyi bəzi məxfi informasiyalar vaxtaşırı xaricdəki blogerlərin dilindən səslənir. Onlar bu informasiyaları necə əldə edirlər, maraqlıdır.

Həmin blogerlərin Azərbaycan məmurlarını şantaj etməsi iddiası da var. Bir müddət əvvəl Avropada yaşayan siyasi fəal Surxan Lətifov sosial şəbəkədə status paylaşaraq yazıb ki, Almaniya prokurorluğu konkret faktlar əsasında azərbaycanlı blogerlərə qarşı araşdırma başlayıb.

**S.Lətifov yazıb:** "Məsələ bundadır ki, həmin bloqerlər müxtəlif dövrlərdə şantaj yolu ilə azərbaycanlı məmurlardan 500 min avro pul alıblar. Pulvermə prosesi isə Azərbaycan DTX tərəfindən sübutlarla rəsmiləşdirilib Almaniya prokurorluğuna verilib... İndi prokurorluğa çağırılıb bir-bir ifadə verirlər. Daha çox hansısa Tural Sadıqlı adlı blogerin adı hallanır".

Bir sözlə, gedişat göstərir ki, bu prosesin sonunda kimlərinsə qoluna qandal vurulacaq.

❑ **Musavat.com**

# Lalə Şövkətin siyasətə "liberal" qayıdışı - deputatlıq iddiası, yoxsa...

## Seçki öncəsi yaranan "Qurucular hərəkatı"nın məqsədi nədir; **politoloq:** "Belə görünür ki, Lalə xanım öz ətrafını təşkilatlandırır, lakin..."

**Mayın 28-də bir qrup siyasətçi və fəal "Qurucular hərəkatı"nın yaradıldığını elan ediblər. Təşkilatın təşəbbüskarı, müxalif siyasətçi Əvəz Temirxan "Turan"a bildirib ki, hərəkat əhalinin demokratik maarifləndirilməsi, vətəndaşların siyasi proseslərdə ictimai iştirakının artırılması, ölkədə azad seçkilər keçirilməsinə şərait yaradılması məqsədilə yaradılıb.**

O deyib ki, hərəkatın yaradılmasının elan edilməsi Müstəqillik Gününə təsadüf edib, bu da təşkilatın təsisçilərinin Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920-ci illər) qurucularının ideyalarına sadiqliyini təcəssüm etdirir.

"Hərəkatın məqsədi demokratik Azərbaycan qurmaqdır. Hərəkata rəhbərlik kollektiv olacaq", - deyə o qeyd edib.



Temirxanın sözlərinə görə, yaxın günlərdə hərəkat qeydiyyat üçün sənədlərini Ədliyyə Nazirliyinə təqdim edəcək.

Qeyd edək ki, Əvəz Temirxan Lalə Şövkət Hacıyevanın qurucusu və lideri olduğu, ötən il ləğv edilmiş Azərbaycan Liberal Partiyasının sədri idi. Partiya buraxıldıqdan sonra keçmiş ALP sədri belə bir hərəkat yaratmasını sözsüz ki, Lalə Şövkətlə də razılaşdırıb. Bu həm də belə rəylər yaradır ki, parlament seçkiləri öncəsi Lalə Şövkət "düşərgəsinin" hərəkətlənməsi təsadüfi deyil. Böyük ehtimalla təşəbbüs elə Lalə xanımdan gəlib və o, parlament seçkilərində namizəd olmaq niyyətindədir.

Bütün hallarda uzun müddətdir siyasi susqunluq nümayiş etdirən Lalə Şövkətin yaxın ətrafının, keçmiş partiyasının sədrinin hərəkat yaratması bu düşüncəni formalaşdırır.

"Quruculuq hərəkatı"nın Lalə Şövkətin namizədliyini irəli sürəcəyi ehtimalı yüksəkdir. Bəs "Quruculuq hərəkatı"nın cəmiyyətdə qısa müddətdə uğur qazanması mümkünmü? Lalə Şövkət Hacıyeva parlament seçkilərinə qatılarsa, uğur qazanması inandırıcıdırmı?

**Milli Cəbhə Partiyasının sədr müavini, siyasi ekspert Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a bildirdi ki, ölkədə keçiriləcək növbəti parlament seçkiləri öncəsi siyasi hərəkatların yaradılması əslində normaldır və gözləniləndir. Bir qrup siyasətçinin bir araya gəlməsinə və yeni hərəkat yaradılmasına gəlincə, Əvəz Temirxanın prosesdə öndə olması məsələnin arxasında əslində Lalə Şövkətin dayandığı ehtimalını artırır: "Belə görünür ki, hörmətli Lalə xanım öz ətrafını təşkilatlandırır və hansısa mərhələ üçün hazırlıqlar görür. Amma ölkədəki indiki ictimai-siyasi durumda hərəkata ehtiyac görmürəm.

Lalə Şövkət xanım seçkiyə namizəd olaraq gedə bilər. Onun seçkilərdə uğur qazanması ilk növbədə seçicilərin etimadından asılı olacaq, hansısa hərəkatdan deyil. Nəzərə alaq ki, uzun illərdir Lalə xanım siyasətdən uzaqlaşıb, ləğv edilən partiyasının qeydiyyatda olduğu son illərdə də hətta heç bir ciddi siyasi fəaliyyəti olmayıb, bu amillər onun şanslarını azaldır. İndi odu söndürüb külü ilə oynamağın çətin ki, faydası olsun. Ümumiyyətlə, belə bir hərəkatlara cəmiyyətdə sifariş yoxdur. Lalə Şövkətin bundan sonra siyasətdə uğur qazanması da, məncə, mümkün deyil".

**Partiya yetkilisi hesab edir ki, bu cür hərakatlar yaradılır, əhalinin siyasi maarifləndirilməsi məqsədilə yaradıldığı elan edilir, amma əslində faktiki öz siyasi məqsədləri üçün çalışırlar:** "Yeni yaradıldığı elan edilən "Qurucular hərəkatı" da, hər halda, belə olacaq. Hesab edirəm ki, bu cür təşəbbüslər yalnız seçkilərə hesablanır. Seçkidən sonra da özlərini buraxır və siyasətçilər də kənara çəkilir. Bu baxımdan da hesab edirəm ki, yaradılan "Qurucular hərəkatı" da mövsümi xarakter daşıyır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

# Ermənistan bu dəfə “xaçlı tələ”yə düşə bilər - sülhə qarşı dini yürüş

**Ermənistan revanşist, terrorçu siyasətçilərin ardınca “xaçlı tələ”yə düşə bilər. Hazırda gedən proseslər bunu deməyə əsas yaradır. “Vətən uğrunda” hərəkatının lideri, Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının primatı, arxiyepiskop Baqrat Qalstanyanın ardınca Ermənistanda dini revanşizmə, faktiki sülh əleyhinə daha bir keşiş qoşulub.**

## Mövcud durumda erməni xalqı kilsə agentlərinə geniş dəstək vermir, amma...

“Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının baş məmuru, arxiyepiskop Baqrat Qalstanyanın özünü qurban etməsi məni çox da sevindirmir”.

Bunu Erməni Apostol Kilsəsinin Şirak yeparxiyasının primatı, arxiyepiskop Mikayel Acapaxyan Sərdarabad memorial kompleksində çıxışı zamanı bildirib.

Onun fikrincə, bu işi öz üzərinə götürəcək siyasi qüvvələr olmalı idi, lakin onlar olmadığına görə Baqrat Qalstanyan qabağa düşüb.

Acapaxyan Paşinyan iqtidarı nümayəndələrinin Baqrat Srbazanın başlatdığı hərəkatı faşizm hesab etməsinə reaksiya göstərib: “Burada faşizm yoxdur. Nikol Paşinyan qaçır: qorxaq həmişə qaçır. Qorxaq olmasaydı, görüşərdi. Onun yalançı olduğunu bilmirsiz? Bu adam əvvəllər deyirdi ki, Qarabağ Ermənistandır, vəssalam, amma indi heç Qarabağı dilinə gətirmir”, - deyə erməni keşiş bildirib.

“Ermənistanın baş naziri Nikol Paşinyanın istefası üçün hələ çox iş görülməlidir”.

Bunu isə dini revanşizmə dəstək verən “İrs” partiyasının rəhbəri, Ermənistanın birinci xarici işlər naziri Raffi Ovannisyan deyib. Onun fikrincə, bundan sonra “Vətən uğrunda” hərəkatının lideri, Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının primatı, arxiyepiskop Baqrat Qalstanyan cəmiyyətin etimadını qazanaraq hökumətin başçısı ola biləcək.

Revanşist Ovannisyanın sözlərinə görə, ermənilərin türklər üzərində savaşı yarımçıq qalıb, bir əsr sonra Ermənistan yenidən dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzədir.

Görünən budur ki, Ermənistanın xilası olan sülh prosesinə qarşı “xaçlı tələ” qurulur və bunu elə keşişlərin əli ilə edirlər. Düzdür, sülhə qarşı proseslər bütün bölgəyə ziyanlıdır, ancaq ən böyük faciəni elə Ermənistan yaşayacaq. Əgər Paşinyan tezliklə vəd etdiyi kimi kilsələri siyasi təsir agenti olmaqdan qurtara bilməsə, proseslər arzuolunmaz məcraya yönələ bilərmi? Yoxsa keşişlərin bu imkanları məhduddur? Ekspertlər Ermənistanda böyüyən “xaçlı proses”in sonunu necə görür?

**Deputat Kamran Bayramov** “Yeni Müsavat”a açıqlamasında dedi ki, bəzi dövlətlər Ermənistana dəstək verərək Cənubi Qafqazda qalıcı sülhü əngəlləməyə çalışsalar da hazırda iki ölkə arasında vasitəçilərsiz danışıqlar gedir və bu danışıqlar təkliflərin layihəsi üzərində aparılır: “İndi biz müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi başlayıb. Delimitasiya prosesinin ilkin mərhələsində Ermənistan tərəfindən işğal olunmuş dörd kəndin qaytarılması davam edən sülh müzakirələri prosesində nəzərə çarpacaq nailiyyətdir. Delimitasiya prosesi çərçivəsində Azərbaycanın bir qarış torpağının belə Ermənistana verilməməsi 44 günlük müharibə və antiterror əməliyyatı zamanı qələbəmizin davamıdır.

Göründüyü kimi, baş nazir Nikol Paşinyan iqtidarının son vaxtlar nümayiş etdirdiyi konstruktivliyə baxmayaraq, kilsə prosesi əngəlləmək üçün daxildəki və xaricdəki müəyyən siyasi qüvvələri qızışdırır. Bunun nəticəsində onlar bir müddət öncə Azərbaycanla şərti sərhədə yaxın kəndlərdə kütləvi etirazlara başlayıblar. İndi isə prosesi İrəvanda davam etdirməyi qarşıya məqsəd qoyublar. Ümumiyyətlə, son ayın tendensiyası göstərir ki, kilsə Ermənistanda siyasi proseslərə daha aktiv şəkildə qatılmaqdadır və əslində hazırda sülh prosesinə əngəl yaradan əsas institut hesab oluna bilər. Güman etmək olar ki, Ermənistanın dünyəvi müxalifəti reytinqinin çox aşağı olmasını nəzərə alaraq geri çəkilib və “din xadimləri” adlanan siyasiləşmiş şəxsləri qabağa verib. Əslində onlar dünyəvi müxalifət adını daşımağa da layiq deyillər. Bunlar Ermənistanda 20 il talançılıqla məşğul olan Robert Köçəryan və Serj Sərkisyanın dəstəsinin üzvləridir. Köçəryan bu siyasi avantürada “xaç atası” rolunda çıxış edir. Ancaq onun aqibətinin yaxşı olmayacağı göz qabağındadır. Çünki erməni cəmiyyəti bu qüvvələrdən bezib, onları 2018-ci ildə siyasi səhnədən, necə deyərlər, birdəfəlik süpürüb atıb. Görün, bu talançılar 20 il ərzində xalqın başına hansı oyunları açıblar ki, haylar 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərində hətta müharibəni uduzmuş baş naziri belə hakimiyyətdə saxlamağa razılaşdılar, təki “Qarabağ klanı” yenidən hakimiyyətə qayıtmasın. Bu mənada əlləri hər yerdən üzülmüş revanşist qüvvələr Paşinyanı “din xadimləri”nin mübarizəsi ilə devirməyi planlaşdırıblar. Köçəryanın, Sərkisyanın, Ermənistandan kənar müəyyən qüvvələrin əlindən qidalanan barışmaz müxalifətin, eləcə də erməni apostol kilsəsinin bəzi nümayəndələrinin son zamanlar etdikləri də məhz budur. Bu qüvvələr Ermənistanı yanlış istiqamətə yönəldir. Ermənistanda kilsə ilə hakimiyyət arasında savaş tam sürətlə davam edir. Artıq hakimiyyətin siyasi elitası erməni kilsəsini sıxışdırmaq üçün vergi tətbiqi ilə bağlı məsələni gündəmə gətirməkdən belə çəkinmir. Erməni apostol kilsəsi tərəfindən bir sıra ərazilərdə toqquşma, iğtişaş və aksiyalar da planlaşdırılıb. Apostol Kilsəsi cəmiyyəti korlayan və parçalayan sektalarla mübarizə aparmaq əvəzinə, dövlətə qarşı mübarizə aparmaq və bu təriqətləri dərinləşdirmək məqsədi ilə onlarla gizli görüşlər keçirir”.




**Deputat diqqətə çatdırıb ki, hazırda Paşinyan iqtidarının xaricdəki erməni lobbi və diaspor təşkilatlarına təsir iradəsi də yoxdur. Bu tendensiya özünü son zamanlar daha qabarıq formada göstərməkdədir:** "Nəzərə alaq ki, əvvəlki Ermənistan hakimiyyətləri ilə lobbi və diaspor arasında dərin bağ və birgə fəaliyyət var idi. Bu gün bu fəaliyyətdən əsər-əlamət qalmayıb. Ona görə də onlar Paşinyanı və komandasını ölkənin maraq və mənafelərini qoruya bilməməkdə günahlandırırlar. Hazırda erməni cəmiyyəti həssas bir dönəmdədir. Paşinyan ya Azərbaycanın sülh çağırışına cavab verib Ermənistanın inkişaf və rifahına nail olmalı, ya da xalq kilsənin təbliğatına qoşulub, fəlakətə yuvarlanmalıdır. Əgər erməni xalqı ikinci yolu seçərsə, bu zaman Ermənistanda yeni fəlakət və münaqişələrin əsası qoyulmuş olacaq".

**Ədalət, Hüquq, Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı erməni cəmiyyətinin keşişlərə dəstək vermədiyini söylədi:** “Ermənistanda başlanan "kilsə inqilabı" birbaşa revanşist qüvvələrin - Köçəryan və Sərkisyan cütlüyünün dəstəklədiyi prosesdir. Bunlar açıq şəkildə kilsəni siyasətə qoşublar. Çünki bu qüvvələr uzun müddət hakimiyyətdə olublar, xalqa qarşı amansız davranıblar, qəddarlıq ediblər, böyük həcmdə korrupsiyaya bulaşıblar. Erməni cəmiyyəti də məhz bu cütlüyün zülmündən Nikol Paşinyanı hakimiyyətə gətirib. İndi də kilsəni qabağa verməklə xalqın dəstəyini qazanmaq istəyirlər. Paşinyanı devirmək istəyirlər. Ermənilərin xəstə təfəkkürünün yayılmasında, genişlənməsində - “dənizdən dənizə böyük Ermənistan quracağıq” kimi xoş xülyaların daşıyıcısı olan kilsə nümayəndələrinin hər zaman rolu olub. Kilsəni siyasiləşdiriblər. Özlərinin siyasi məqsədləri üçün kilsə faktorundan istifadə ediblər. Artıq Paşinyan hakimiyyəti erməni xalqı üçün vacib addımları atdığını, indiki Ermənistanın ərazisinin qorunmasını və gələcək nəsillərin sağ qalması üçün Azərbaycanla sülh prosesinin bağlanmasını bəyan edir. Ermənilər üçün ən doğru addım budur. Əks halda, daha böyük və ağır vəziyyətlə qarşılaşacaqlar. Hansısa dövlətin vasitəçi rolu ilə Azərbaycana qarşı rol alsalar, Prezident İlham Əliyevin dediyi dəmir yumruq başlarını əzəcək. Hələlik görünən odur ki, indiki vəziyyətdə xalq kilsə agentlərinə geniş dəstək vermir. Çünki onların əsl simalarını və kimə qulluq etdiklərini bilirlər".

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**




## Lavrov: “SSRİ dağıldıqdan sonra NATO-nun buraxılmaması səhv idi”

**Bir çox analitiklər hesab edir ki, SSRİ-nin dağılmasından və Varşava Müqaviləsi bitdikdən sonra NATO bloku buraxılmalı idi. APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ukraynadakı münaqişənin həlli mövzusunda xarici diplomatik missiyaların rəhbərləri ilə görüşündə deyib.**

“Bu gün Qərbdə bir çox tarixçilər, politoloqlar, ekspertlər, ilk növbədə, həmkarlarının son illər, bəlkə də onilliklər ərzində danışdıqlarını təkrarlayırlar. Deyirlər ki, Varşava Müqaviləsi buraxıldıqda, Sovet İttifaqı Avropa və ABŞ-la, bütövlükdə Qərblə birləşmək üçün açılanda bərabərlik prinsipi, qarşılıqlı fayda, qarşılıqlı hörmət əsasında, heç kim NATO-nu buraxmağa başlamadı. Çoxları bunu səhv hesab edir”, - deyə Rusiya XİN başçısı vurğulayıb.

Lavrov qeyd edib ki, dünən məşhur amerikalı iqtisadçı və politoloq Cefri Saks Taker Karlsona müsahibə verərkən həmin tarixi səhvi bir daha xatırladıb.

“Bu edilmədi, amma indi əminliklə deyə bilərik ki, bu qərarın səbəbi ABŞ-ın NATO-nu Avropa üzərində nəzarət aləti kimi saxlamaq istəyi olub”, - XİN başçısı vurğulayıb.



# İki nazirlik qeyri-neft ixracını artırmaq təklifi verib - nələr var...

## Ekspert: "İlk növbədə rəqabətqabiliyyətli məhsul istehsalını yoluna qoymaq, sonra"...

**Azərbaycanda qeyri-neft məhsullarının ixracının artırılması uzun illərdir aktual məsələ kimi qarşıda durur. Qlobal səviyyədə neft-qaz kimi qalıq yanacaqlardan bərpa olunan təmiz enerjiyə keçid prosesinin sürətlənməsi ixracatçı ölkələrin hamısını qeyri-mədən sektorunu inkişaf etdirmək kimi qaçılmaz vəzifə ilə üz-üzə qoyub. Azərbaycan da alternativ enerjiyə keçid prosesində geridə qalmamaqla yanaşı, qeyri-neft-qaz sektorunun inkişaf etdirilməsi, ölkəyə neft-qazdan kənar və stabil valyuta axınının təmin olunması kimi son dərəcə zəruri çağırışla qarşılaşıb.**

Bir çox mütəxəssislərə görə, ölkəmizdə valyuta axınında qalıq yanacaqdan asılılığın azaldılması üçün zəruri olan bütün addımlar vaxtında və ardıcıl atılmır. Xüsusilə kənd təsərrüfatı, emal sənayesi kimi sahələrdə istehsalın artırılması, ixrac üçün rəqabətqabiliyyətli məhsul buraxılışının təmin olunması, turizmin inkişafı üçün real şərtlərin təmin olunması baxımından Azərbaycanda görüləsi işlərin çox olaraq qaldığı bildirilir.

Müstəqil ekspertlər son illərdə qeyri-neft ixracının müntəzəm artımını müsbət hal kimi dəyərləndirsələr də, artım dinamikasını, ixracın həcmi və ixrac bazarlarının diversifikasiyasını heç də yetərli hesab etmirlər.

Qeyd edək ki, 2023-cü ildə Azərbaycanın qeyri-neft məhsulları 110-dan çox ölkəyə ixrac edilib. **İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev**in verdiyi məlumata görə, Azərbaycan məhsulları əsasən Rusiyaya, qismən isə Türkiyə, Gürcüstan, İsveçrə, Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri, Qırğızıstan və Ruminiyaya ixrac edilib: "Ötən il Azərbaycanın qeyri-neft ixracının dəyərində rekord qeydə alınıb. 2023-cü ildə Azərbaycan 3,348 milyard ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edib ki, bu da 2022-ci illə müqayisədə 9,8 faiz çoxdur".

2024-cü ilin yanvar-aprel aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 13 milyard 633,4 milyon ABŞ dolları təşkil edib. "Yeni Müsavat" Dövlət Gömrük Komitəsinin statistikasına əsasən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 23,8 faiz azalma deməkdir. Dörd ayda Azərbaycan xaricə 8 milyard 168 milyon 591.68 min dollarlıq mal və məhsul ixrac edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə ixracımızın 4 milyard 416 milyon 221.26 min dollar və ya 36,1 faiz azalması deməkdir.

Cari ilin 4 ayında ümumi ixracımızın 7 milyard 248 milyon 577.70 min dollarını neft-qaz sektoruna, 920 milyon 13.98 min dollarını isə qeyri-neft-qaz sektoruna daxil olan mallar təşkil edib. Neft-qaz ixracımız ötən ilin eyni dövrü ilə müqayisədə 36,3 faiz və ya 4 milyard 149 milyon 16.58 min dollar, qeyri-neft ixracımız isə 22,5 faiz və ya 267 milyon 204.68 min dollar azalıb.

Qeyri-neft-qaz sektorunun əsas məhsulları olan kənd təsərrüfatı, kimya sənayesi məhsullarının ixracında isə artım var. Belə ki, bu ilin yanvar-aprelində ölkədən 180 milyon 312.37 min dollarlıq meyvə-tərəvəz ixracı qeydə alınıb ki, bu da əvvəlki illə müqayisədə 19 milyon 244.35 min dollar və ya 12 faiz artım deməkdir. Dörd ayda bir sıra kənd təsərrüfatı məhsullarının ixracında kəskin artım qeydə alınıb. Məsələn, bu dövrdə Azərbaycandan 27 milyon 781 min ABŞ dolları dəyərində 35 362 ton xurma ixrac edilib. Bu, ötən illə müqayisədə dəyər ifadəsilə 89 faiz, miqdar ifadəsilə 75 faiz artım deməkdir: Azərbaycandan 2023-cü ilin eyni aylarında 14 milyon 727 min dollar dəyərində 20 248 ton xurma ixrac edilmişdi.

Rusiyada pomidor idxalının rüsumlardan azad edilməsi Azərbaycandan bu məhsulun ixracında ciddi artıma səbəb olub. Dörd ayda ümumilikdə ölkədən xaricə 71 milyon 167.17 min dollar dəyərində 52 175.34 ton pomidor ixrac edilib. Bu, ötən ilin dörd ayı ilə müqayisədə dəyər ifadəsində 31,4 faiz(Ötən il 54 milyon 161.50 min dollarlıq ixrac olmuşdu - red. ), miqdar baxımından isə 20,4 faiz (43 338.09 ton) artım deməkdir.

İxracında ciddi artım olan daha bir məhsul pambıq lifidir. Bu ilin dörd ayında 78 milyon 691.75 min dollar dəyərində, 51 994.98 ton pambıq lifi ixrac olunub. Ötən illə müqayisədə ixrac dəyər baxımından 205 faizdən çox, miqdar ifadəsində isə 248 faiz artıb.

Yanvar-aprel aylarında qeyri-neft-qaz məhsullarından almanın, bitki və heyvan mənşəli piylər və yağların, alüminium və ondan hazırlanan məmulatların da ixracında artım olub.

Ötən illə müqayisədə ixracı azalan məhsullar arasında isə nar, şəkər, çay, kartof, kimya sənayesi məhsulları və sair var.

İxraca yönəldilən qeyri-neft məhsullarının çeşidinin, həcminin artırılması, ixrac coğrafiyasının genişləndirilməsi hazırda qarşıda duran ən mühüm məsələlər hesab olunur. Məsələ burasındadır ki, Azərbaycanın kənd təsərrüfatı ixracının aşağı-yuxarı 90 faizi bir bazara - Rusiyaya ixrac olunur. Bu isə Rusiyanın kifayət qədər etibarsız tərəfdaş olduğunu nəzərə aldıqda, qətiyyən müsbət tendensiya hesab oluna bilməz.

Azərbaycan hökuməti qeyri-neft ixracının stimullaşdırılması üçün bir sıra addımlar atır. Məsələn, kənd təsərrüfatı istehsalı çoxsaylı mexanizmlər vasitəsilə dövlət tərəfindən dəstəklənir. Bilavasitə ixracın dəstəklənməsi üçün 2016-2020-ci illərdə ixrac təşviqinin ödənməsi mexanizmi tətbiq olunub. İxrac təşviqinin ödənməsi 2016-cı il 6 oktyabr tarixindən qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi həyata keçirilib. Ödənilən ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizini təşkil edib. İqtisadiyyat Nazirliyinin məlumatına əsasən ixrac təşviqinin ödənilməsi müddəti bitənədək 157 sahibkarlıq subyektinə 27,5 milyon manatdan çox dövlət büdcəsi hesabına ixrac təşviqi ödənilib. Bu mexanizmin tətbiqi sayəsində 5 il ərzində yeni və ənənəvi ixrac bazarlarında daxili tələbatı ödəməklə ixrac potensiallı məhsulların qiymətinin rəqabətqabiliyyətliliyi təmin olunub. Bunun nəticəsində sözügedən məhsullar bazarlarda öz yerini tutub, istehlakçıların rəğbətini qazanıb ki, bu da mexanizm qüvvədən düşəndən sonra belə həmin məhsulların ixracının yüksək səviyyədə qalmasını təmin edib.

**İndi isə hökumət daha bir mexanizm işə salmağa hazırlaşır. Yusif Abdullayev bildirib ki, yaxın zamanlarda ölkənin Milli İxrac Strategiyasının, eyni zamanda logistikanın subsidiyalaşdırılması istiqamətində müvafiq sənədlərin təsdiq edilməsi gözlənilir. Onun sözlərinə görə, tətbiq ediləcək mexanizmlər ixracatçılara dəstək məqsədi daşıyır:** "Bununla yanaşı, birbaşa xarici investisiyaların təşviqi strategiyası da hazırlanıb".

**Bugünlərdə Banker.az-ın yaydığı məlumata əsasən, artıq İqtisadiyyat və Maliyyə nazirlikləri Azərbaycan ixracatçıları və logistika şirkətlərinin yeni bazarlara çıxışını stimullaşdırmaq üçün pilot layihə hazırlayıblar:** "İki nazirlik birgə Nazirlər Kabinetinə təklif təqdim edib. Təklifə əsasən, 5 il ərzində xarici bazarlara malların daşınması xərclərinin 75 faizə qədəri dövlət tərəfindən subsidiyalaşdırıla bilər. Bu dəyişiklik Azərbaycan istehsalı olan malların Körfəz ölkələri, Yaponiya, Cənubi Koreya, ABŞ kimi bazarlara çıxışını təmin edə bilər".

**Sayta danışan mənbənin fikrincə, qismən subsidiya mexanizmi vasitəsilə həm yerli ixracatçılar, həm də yerli logistika şirkətləri inkişaf edəcək. Mənbə bildirib ki, bu təklif Azərbaycanın bütün nəqliyyat və logistika assosiasiyalarında müzakirə mərhələsindən keçib və böyük həvəslə qarşılanıb:** "Belə bir mexanizmin qəbulu həm də Azərbaycan məhsullarının ənənəvi bazarlara tədarükünü artıra bilər. Subsidiya yüksək nəqliyyat xərcləri və malların saxlanması (yüklənməsi) üçün xərclər olan logistika sahələrində istifadə oluna bilər".

Qeyd olunur ki, əgər bu təklif hökumət tərəfindən təsdiqlənsə, Azərbaycan ixracatçıları üçün logistikanın qismən subsidiyalaşdırılması mexanizmi artıq 2024-cü ildən tətbiq oluna bilər.

Onu da qeyd edək ki, nəqliyyat xərclərinin yüksəkliyini bir çox ixracatçı birlikləri ixrac coğrafiyasının genişləndirilməsi yolunda başlıca problem kimi qiymətləndirirlər. Məsələn, pomidor ixracatçıları Körfəz ölkələrindən Azərbaycan məhsuluna marağın olduğunu, lakin nəqliyyat xərcinin yüksəkliyi üzündən məhsulumuzun o bazarda Mərakeş məhsulu ilə qiymət rəqabətinə davam gətirmədiyini deyirlər. Eyni problem digər məhsullar üzrə və digər bazarlarda müşahidə olunur.

**İxracatçıların nəqliyyat-logistika xərclərinin dövlət tərəfindən subsidiyalaşdırılması bu problemin tam həllinə gətirib çıxara bilərmi? Bu mexanizm hansı hallarda daha effektli ola bilər? Sualları cavablandıran iqtisadçı-ekspert Eldəniz Əmirov bildirir ki, Azərbaycanda qeyri-neft məhsullarının ixracı sahəsində mövcud olan əsas problem bu məhsulların xarici bazarda qiymət rəqabətində digər ölkələrin məhsullarına uduzmasıdır:** "Bunun da bir neçə səbəbi var. Onlardan biri milli valyuta olan manatın digər valyutalar qarşısında mövqeyinin güclü olmasıdır. Bu şəraitdə yerli məhsullar ixrac bazarlarına daha baha qiymətə gedib çıxır. Digər bir səbəb bizdə ixrac edilən məhsulların istehsalı prosesinin kütləvi olmadığına görə 1 məhsulun maya dəyərinin kütləvi istehsalın olduğu digər ölkələrdən baha başa gəlməsidir. Başqa bir məsələ standartlarla bağlıdır. Xüsusilə Avropa İttifaqının tələblərinə uyğun məhsul istehsalını təmin etmək mümkün olmur, çünki maya dəyəri çox yüksək olur və bazar tapmaq mümkün olmur".

**Ekspertin sözlərinə görə, Azərbaycanda qeyri-neft ixracının artırılması üçün ilk növbədə ölkədə bu sektorun səmərəli inkişafı təmin olunmalıdır:** "Yeni əsas ixrac bazarlarının standartlarına uyğun məhsul istehsalının təmin olunması lazımdır ki, növbəti mərhələyə - ixracda rəqabətqabiliyyətliliyin artırılmasına keçilsin. Bu sahədə müsbət nəticənin əldə edilməsi üçün nəqliyyat-logistika xərclərinin subsidiyalaşdırılması atıla biləcək addımlardan biridir. Düşünürəm ki, dəqiq və işlək mexanizm formalaşdırılarsa, müsbət effekt verə biləcək tədbirdir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

# Gürcüstanda proseslər kritik mərhələyə girdi - Qərbin mesajı...

## Natiq Cəfərli: "Əgər oktyabr seçkisində "Gürcüstan arzusu" yenidən qalib gələcəksə, bu o deməkdir ki, xalq qəbul edilmiş qanuna etiraz etmir"

**Gürcüstan parlamenti gözlənilən addımı ataraq, Prezidentin mübahisəli "xarici təsir" qanununa qoyduğu vetonu ləğv etdi.**

Hələ parlamentdə buna dair müzakirə başlayanda "demokratik qüvvələr" parlament binasının ətrafında etiraz aksiyasına başlamışdı. Binanın girişinə toplanan etirazçılar hakim "Gürcü arzusu" partiyası və təqdim etdiyi "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi əleyhinə müxtəlif şüarlar səsləndirirlər.

Nəhayət, günün ikinci yarısında Gürcüstan parlamenti prezident Salome Zurabişvilinin "xarici təsir" haqqında qanuna veto qoymasını səs çoxluğu ilə ləğv etdi. Qanunun lehinə 84, əleyhinə isə 4 deputat səs verib. Parlamentin gərgin keçən iclasında insident də qeydə alınıb. "Gürcü arzusu" partiyasının deputatı İrma Zavradaşvili "Strategiya Aqmaşenebeli" partiyasının sədri Giorgi Vaşadzenin üstünə su atıb. Hadisə G.Vaşadze tribunada çıxış edərkən baş verib.

Beləliklə, bundan sonra Tiflisdə gərginliyin yeni mərhələsi başladı. Görünən budur ki, qonşu ölkədə proseslər kritik dönəmə daxil olur.

Bu arada Avropa İttifaqı bəyanat verib ki, iyunda "xarici təsir" qanununa görə Gürcüstana qarşı cavab tədbirlərini müzakirə edərək qərarlar qəbul edəcək.

**Bunu ittifaqın xarici siyasət üzrə rəhbəri Cozep Borrel X platformasında paylaşımında qeyd edib. Borrel qanunun Aİ dəyərlərinə uyğun olmadığını, Gürcüstanın Aİ yoluna təsir göstərəcəyini bildirib:** "Xarici təsir qanunu Aİ dəyərlərinə uyğun gəlmir. Qanun qəbul olunarsa, bu, Gürcüstanın Aİ yoluna təsir edəcək. İyunda xarici işlər nazirləri şurasında Aİ-nin cavabını müzakirə edəcəyik və qərar qəbul edəcəyik. Oktyabr seçkiləri Gürcüstanın Aİ-nin gələcəyinə sadiqliyi üçün sınaq olacaq".

Bəs veto ləğv edildikdən sonra qanunun qüvvəyə minməsi üçün hansı prosedurlar həyata keçirilməlidir? Prosesin növbəti mərhələsi Gürcüstanda hansı hadisələrlə müşayiət oluna bilər?

**Mövzu ilə bağlı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a danışıb:** "Əgər "veto" parlament tərəfindən ləğv edilibsə, o deməkdir ki, həmən qüvvəyə minəcək. Yəni Gürcüstan parlament respublikasçıdır, prezidentin simvolik funksiyaları var. Amma "veto" qoyduqdan sonra və parlament bu "veto"nu ləğv edirsə, prezident ikinci dəfə "veto" qoya bilməz. Onun belə bir fürsəti, imkanı yoxdur, qanunvericilik bunu qadağan edir.

Beləliklə, qanun artıq qüvvəyə minib və bundan sonra qəbul olunmuş qanuna görə davranılacaq".

**Natiq Cəfərli qeyd edib ki, əslində vəziyyətin bu qədər gərginləşməsi anlaşılan deyil:** "Sözün doğrusu, burada ciddi bir problem yoxdur. Çünki maliyyə mənbələrinin şəffaflığı demokratiyanın əsas qanun-qaydalarından biridir. Bu qanun da onu deyir ki, əgər hansısa bir təşkilat, media, universitet və sairə, maliyyə mənbələrinin 25 faizdən çoxunu xaricdən alırsa, bununla bağlı Ədliyyə Nazirliyinə, eləcə də müvafiq icra qurumlarına məlumat verməlidir.

Buna bənzər qanunlar ABŞ-da da var. Belə ki, 1938-ci ildə Birləşmiş Ştatlarda bu cür qanun qəbul edilib. Eləcə də Avropa İttifaqında Rusiya kanallarına qarşı bənzər qanun qəbul edilmişdi. Yəni Gürcüstanda bu cür qanunun qəbul edilməsi ilk deyil, bunun qədər xeyli ölkələrdə tətbiq olunub.




Burada anlaşılmaz məsələ ondan ibarətdir ki, Qərb ölkələri, Avropa İttifaqı, Amerika Gürcüstandakı son seçkilərdəki nəticələri alqışlamışdılar və Gürcüstan parlamentinin tam demokratik prinsiplərlə formalaşdığını demişdilər".

**Natiq Cəfərli qeyd edib ki, demokratik seçilmiş parlamentin qəbul etdiyi qanuna görə ölkəyə qarşı sanksiyaların qoyulması yolverilməzdir:** "Bu, demokratiya adına xələl gətirən məsələdir. Fikrimcə, Qərb ölkələrinin bu cür addım atması Gürcüstanın daxilində əksinə, "Gürcüstan arzusu" partiyası və konservativ düşüncəyə malik siyasi qüvvələri daha da birləşdirəcək. Onlar bildirir ki, "biz suveren dövlətik, suveren dövlət kimi də istənilən qanunu qəbul edə bilərik".

Daha bir anlaşılmaz məsələ budur ki, oktyabr ayında Gürcüstanda seçkilər keçiriləcək. Yəni xalq doğrudan da bu qanunun əleyhinədirsə, seçkilərdə bu qanunu qəbul etmiş partiyanı cəzalandırmalıdır, onlar parlamentdə azlıqda qalmalıdır və parlament yenidən formalaşdıqdan sonra noyabr ayında bu qanunu ləğv edə bilərlər. Yəni məlum olduğu kimi, qanunların qəbulu və ləğvi adi prosedurdur, bu, dini kitabda yazılan ayələr deyil ki, ləğv edilməsin.

Beləliklə, ona görə də seçkilərə bir neçə ay qalmış Gürcüstanda vəziyyətin bu cür hal alması anlaşılan deyil və bu, demokratik seçki institutunun özünə ziyan vurur. Çünki seçki institutu oturuşmuş ölkələrdə küçə vasitəsilə hakimiyyəti dəyişmək doğru deyil. Bunu seçkilərə az qalmış vaxtda etmək isə, ümumiyyətlə, yolverilməzdir. Ona görə də hesab edirəm ki, müxalifət bu vəziyyətdən istifadə edərək, seçkilərdə öz gücünü daha da artırmağa çalışacaq və beləliklə, seçkilər kəskin rəqabət şəklində keçəcək.

Əgər seçkidə "Gürcüstan arzusu" yenidən qalib gələcəksə, bu o deməkdir ki, xalq qəbul edilmiş qanuna etiraz etmir.

Onu da qeyd edim ki, "Gürcüstan arzusu"nun müəyyən iqtisadi uğurları var. Belə ki, inflyasiya çox aşağıdır, lari dollar qarşısında dəyər qazanıb və bu da əhaliyə müsbət təsir göstərib, iqtisadi artım 8 faiz civarındadır və sairə. Yəni "Gürcüstan arzusu" seçkilərdə bu uğurlarından istifadə etməyə, bununla da növbəti qələbəni qazanmağa çalışacaq. Amma buna nə qədər nail ola biləcək, parlament necə formalaşacaq, orada əsasən hansı qüvvələr olacaq, bunu zaman göstərəcək.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Paşinyan Kremlə "əlcək atdı" - "Birinci kanal"ın bloklanmasına görə gərginlik pikdə...

## Ermənistanda Rusiyanın "Birinci kanal"ının yayımı dayandırılıb, İrəvan isə bunu "borc"la izah edir; ekspertlərin fikrincə, anti-Moskva ritorikası güclənəcək

**İrəvan Kremlə açıq demarş edir. Belə ki, Ermənistanda Rusiyanın "Birinci kanal"ının yayımı dayandırılıb. "Yeni Müsavat" xəbər verir ki, bu barədə Ermənistan Yüksək Texnologiyalar Nazirliyi məlumat yayıb. Bildirilib ki, ölkənin daxili siyasətinə hörmətsiz münasibət kanalların fəaliyyətinin dayandırılmasına səbəb olacaq. "Ermənistan Televiziya və Radio Verilişləri Şəbəkəsi QSC ilə "Kanal 1" arasında mövcud razılaşmaya əsasən, Qlobal Şəbəkə ASC, Kanal 1, Qlobal Şəbəkə 2,5 aydır borc və müqavilə öhdəliklərini yerinə yetirməyib". "Rusiya kanalının (ORT - red.) ictimai multipleksdə yayımı borc tam ödənilənə qədər müvəqqəti olaraq dayandırılıb", - Ermənistanın yüksək texnologiyalı sənaye naziri Mxitar Ayrapetyan bildirib. Buna qədər isə Paşinyan MDB Hökumət Başçıları Şurasının iclasını boykot etməklə Moskvaya "əlcək atmışdı". İndi isə "Birinci kanal"ın yayımı bloklanıb.**




Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitə rəhbərinin birinci müavini, hər zaman ermənipərəst mövqeyi ilə fərqlənən deputat Konstantin Zatulin Nikol Paşinyan barədə çox sərt danışıb. O deyib ki, Paşinyanın hakimiyyətdə qaldığı hər gün Rusiya üçün təhqirdir. Zatulin Paşinyanı anti-Rusiya əhvalı yaratmaqda və nankorluqda suçlayıb: "Ermənistan adlı bir dövlətin mövcud olması Rusiya sayəsində baş verib. Paşinyan isə özünün əməlləri nəticəsində son illərdə baş verənləri Rusiyanın üzərinə atır, bizi günahkar göstərir. Ona da Ermənistanda inanırlar. Bütün bunlar yalandır! Rusiyanın reytinqi Ermənistanda sürətlə düşür və bunun da səbəbkarı Paşinyandır". Rusiyanın 1-ci kanalı ilə yayımlanan həmin verilişdə iştirak edən digər təhlilçilər də bir ağızdan Paşinyanı və onun hökumətini suçlayıblar.

**Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri Azad Məsiyev**in "Yeni Müsavat"a bildirdiyinə görə, Paşinyanı hakimiyyətə gətirən qüvvələr Rusiyanın Ermənistanda təsirlərini azaltmaq istəyir. Analitikn qənaətincə, bu, hərbi-iqtisadi sahələrlə yanaşı kütləvi kommunikasiyalarla da bağlıdır. "Yəni Rusiyadan gələn informasiyanı bloklayırlar. Bu gün rus kanalları ilə yanaşı rus dilinə qarşı da təbliğat gedir. Sözsüz ki, Qərbdən gələn təlimatdır və Paşinyan onu yerinə yetirir. Fikrimcə, erməni iqtidarı bu tapşırıqları davam etdirəcək. Çünki Qərbdə olan havadarları radikal Paşinyan görmək istəyirlər. Odur ki, anti-Rusiya ritorikası güclənəcək". **A.Məsiyevin fikrincə, Moskvanın hərbi-siyasi, iqtisadi təsir rıçaqları var və onlardan hələ istifadə etmir:** "Kreml gözləyir ki, Paşinyan daha radikal addımlar atsın və cavab tədbirləri görmək üçün əsas yaransın".

**Siyasi ekspert Fuad Əliyev** isə hesab edir ki, Ermənistan hakimiyyəti Rusiya əleyhinə addımlarını sürətləndirir və getdikcə gərginliyi artırır. Onun sözlərinə görə, Rusiya telekanallarında Paşinyan tənqid olunur, amma eyni yanaşmanı erməni televiziyalarında da görmək olar. Ekspertin fikrincə, sonuncu qərar münasibətləri daha da kəskinləşdirəcək: "Əvvəlcə Solovyovun efiri bloklandı, indi isə dövlətin kanalına stop qoyuldu. Bu, Rusiyaya meydan oxumaqdır. Ola bilsin ki, müzakirələr nəticəsində məsələ həllini tapsın, borc ödənilsin, hələ ki rəsmi təqdimatı belədir. Amma belə gedişat Paşinyan üçün yaxşı gələcək vəd etmir. Onun Rusiya ilə düşmənçilik siyasəti hakimiyyətinin davamlı təzyiq altında qalmasına səbəb olur. Rusiya hələ ki dözümlü davranır, amma yekunu gözləyir".

**F.Əliyevin sözlərinə görə, iki ölkə arasında informasiya mübadiləsi, bu yöndə əməkdaşlığa dair razılaşmalar mövcuddur:** "Ermənistanın Rusiya ilə kütləvi kommunikasiyalar sahəsində əməkdaşlıq haqqında sazişi var. İndi İrəvan bəyan edir ki, bu sənəd birtərəfli qaydada ləğv edilə bilər. Amma Ermənistanda da antirus ab-havası gücləndirilib. Yəni Rusiya telekanalları Paşinyan hakimiyyətini boş yerə tənqid etmirlər. Rusiya üçün müttəfiq və dost görünən Ermənistanda əhalidə ruslara qarşı mənfi rəy yaradılıb. Bu da Moskvanın xoşuna gəlmir. Buna qədər də məktəblərdə rus sektorunun bağlanması və digər addımlar atılıb".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Yağış barmaqlığı haqda qüssəli yazı

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə rastlaşdığım iki dil yanlışlığına (məncə) münasibətimi yazım. Bunlardan birini dostum, qazi-yazar Məğrub bəy tapıb. Nifrət elədiyim rəsmi ifadə tərziylə yazsam, “onun tərəfindən aşkar edilib götürülmüşdür”. Hansısa saytda belə ifadə getmişdi: “Daxili İşlər Nazirliyi Mətbuat Xidməti İdarəsi”.**

Əgər xidməti yazırıqsa, burada idarə sözü artıqdır, dili zibilləməkdir. Əks halda, bütün dövlət qurumlarımızı da bu “məntiqlə” ifadə etməyə borcluyuq. Buyurun, indən belə Təhsil Nazirliyi İdarəsi yazın. Yaxud Dövlət Sərhəd Xidməti İdarəsi.

İkincisini rəsmi qərardan götürmüşəm. Təzəlikcə verilən həmin fərmanla “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutu adlandırılacaq”. Sitatın sonu.

Məncə, daxili qoşunlar Daxili İşlər Nazirliyinin tabeliyindədirsə, bunu təkrarən daxili adlandırmaq məntiqsizdir, tavtalogiyadır, hətta gülməlidir. Sanki “yağlı yağ”, “şirin qənd”, nə bilim, “düzgün jurnalist”, “demokratik seçki” yazırsan. Doğru forması “Daxili İşlər Nazirliyinin qoşunları” olmalıdır. “Daxili Qoşunların Hərbi İnstitutu” da başqa, növbəti tavtalogiyadır. Hərbi olmayan qoşun varmı? Yoxdur. Bunun düzgün ifadəsi ya “Daxili Qoşunlar İnstitutu” olmalıdır, ya da “DİN Qoşunları İnstitutu”. Gəlin ana dilimizə hörmətlə yanaşaq. Küçəyə siqaret kötüyü atmağın cəriməsi 50 manatdır, ana dilinə artıq söz atmağın niyə cəzası yoxdur?

Akademiyanın dilçiliyə, filologiyaya aid işçiləri də hərdən dərin yuxudan oyanıb bu haqda dövlətə, hökumətə təkliflər verməyə borcludur. Onların vəzifəsi təkcə minnətdarlıq teleqramı vurmaq deyil.

Keçək mövzumuza. Mövzu isə bir oğurluq əhvalatından doğmuşdur. Dənizkənarı bulvarda polis oğru yaxalayıb. O, ərazidən 43 yağış barmaqlığı oğurlamaqda suçlanır. (Xəbərdə həmin əşyaları səhvən “kanalizasiya quyusunun dəmir barmaqlığı” adlandırmışdılar, lakin video və fotolardan aydın görünürdü ki, bunlar quyu barmaqlığı yox, məhz yağış sularının axması üçün küçə, yol kənarına qoyulan barmaqlıqlardır. Ümumiyyətlə, kanalizasiya quyusunun barmaqlığı olmur, qapağı olur. Bu da media aləmimizdə geniş yayılan yanlışlığa - rels sözünü reys və ya tərsinə yazmağa bənzəyir).

Bulvarı bu yaxınlarda Hesablama Palatası yoxlamışdı, məlum olmuşdu idarə zərərlə işləyir. Tək bu idarədirmi? Mənfəətlə, gəlirlə işləyən hansı qurum qalıb ki? Yenə HP-nin son hesabatlarına əsaslansaq, publik hüquqi şəxslərin (bulvar da onların biridir) hamısı zərərlə, dotasiya ilə işləyir. Kim istəsə dəqiq rəqəmləri tapıb baxa bilər. İçində səhiyyədən, təhsildən, mədəniyyətdən tutmuş iqtisadiyyata, kənd təsərrüfatından tikintiyə qədər hər cür idarə var. Bu idarələrin hamısını publik hüquqi şəxsə çevirmişdilər ki, guya bu yolla özünümaliyyələşdirmə artacaq, dövlət büdcəsinə ağırlıq düşməyəcək. Hanı? Nə ət var, nə pişik. Dotasiya da artır, ziyan da. Bunu görəndə zəhmətkeşlərdə yağış dəmirlərini əkişdirməyə həvəs yaranması təbii deyilmi? Atalar demişkən, malına düşdü talan, sən də bir yandan tala.

Allah neft-qaza min bərəkət versin. Hələlik onların hesabına hər cür oğurluğu ört-basdır edirik. Bəs bunlar qurtaranda necə olacaq? O zaman yağış barmaqlıqları oğurlayanları barmaqlıq arxasına göndərmək indiki qədər asan olmayacaq, biləsiniz.

Yazını isə şairin misraları ilə bitirmək və “azadlıq ayrısı sizlərə” salam göndərmək istəyirəm:

***“Küləklər ovutdu məni,***
***Gün vurdu, qurutdu məni.***
***Yağışlar çürütdü məni,***
***Ah, bu yağışlar, yağışlar..."***



# Fələstinə görə ikiyə bölünən dünya - optimal yol...

## Son bir ayda Avropanın üç ölkəsi onun müstəqilliyini tanıyıb, daha dörd dövlət də eyni qərara hazırlaşır; münaqişənin həll yolu Ərdoğanın təklifinin reallaşmasından keçir

**İsrail-Fələstin müharibəsinin necə və nə vaxt, hansı sonluqla bitəcəyi haqda müxtəlif təxminlər, proqnozlar olsa da, gedişat onu göstərir ki, məsələnin həlli heç də asan olmayacaq.**

Ekspertlər deyir ki, münaqişənin, müharibənin sona çatması üçün Fələstin dövlətinin yaradılması şərtdir, hansı ki, bu, 1967-ci ildə BMT tərəfindən təsdiqlənmiş qərardır. Son vaxtlar bu istiqamətdə maraqlı gəlişmələrin şahidi olmaqdayıq. Bəzi Avropa dövlətləri artıq Fələstini müstəqil dövlət kimi tanımağa başlayıblar. Mayın 28-də Norveçin Fələstini müstəqil dövlət kimi tanıması barədə qərarı qüvvəyə minib. Bununla bağlı Norveçin xarici işlər naziri Espen Bart Eydenin hökumətin saytında dərc olunmuş bəyanatında qeyd olunur: “30 ildən artıqdır ki, Norveç Fələstin dövlətini ən çox dəstəkləyənlərdən biridir. Bu gün Norveçin Fələstini rəsmi olaraq dövlət kimi tanıması Norveç və Fələstin arasındakı münasibətlərdə mühüm mərhələdir”.

Bundan əvvəl İrlandiya və İspaniya Fələstinin beynəlxalq hüququn subyekti kimi tanınması barədə qərar elan edib. “Belçika, Lüksemburq, Portuqaliya və Sloveniya tezliklə Fələstini müstəqil dövlət kimi tanıya bilər”. Bu sözləri Rusiya mətbuatına Fələstinin Rusiyadakı səfiri Abdel Hafiz Nofəl deyib.

Norveçin xarici işlər naziri Espen Bart Eyde beynəlxalq ictimaiyyəti iki dövlətli həll yolu istiqamətində işləməyə çağırıb. O həmçinin Fələstin Administrasiyasını islahatlar üzərində işlədiyinə görə tərifləyib və İsrail hökumətini konstruktiv qarşılıqlı fəaliyyət əlaməti göstərmədiyinə görə günahlandırıb. İspaniyanın baş naziri Pedro Sançes isə deyib ki, Fələstin dövlətinin tanınmasının məqsədi israillilərlə fələstinlilər arasında sülhün əldə olunmasına töhfə verməkdir. İsrail bu addımı HƏMAS-a hədiyyə adlandırıb və etiraz əlaməti olaraq hər üç ölkədən səfirlərini geri çağırıb. İsrailin xarici işlər naziri İsrael Katz çərşənbə axşamı bildirib ki, İspaniya hökuməti yəhudilərə qarşı soyqırımı və müharibə cinayətlərinə təhrik etməkdə şəriklik edir.

Ancaq Fələstini tanımamaq kursunu davam etdirən dövlətlər də var. Danimarka parlamenti isə mayın 28-də Fələstinin dövlət kimi tanınmasının əleyhinə səs verib. Qərar layihəsi 28 mayda keçirilən iclasda səsverməyə çıxarılsa da, deputatların dəstəyini qazana bilməyib. Faktiki olaraq Fələstin məsələsində dünya ikiyə bölünüb. Bəs qızıl ortanı necə tapmalı? Bütün hallarda bu savaş, konflikt nə Fələstinə, nə də İsrailə xoşbəxt gələcək vəd edir. Bəs indiki durumda optimal yol nədir? Belə vaxtda isə İsrail tankları Rəfahın mərkəzinə daxil olub. İsrailin beynəlxalq təzyiqə baxmayaraq, Qəzza və Rəfahda əməliyyatlara davam etdiyi bildirilir. BMT-nin Baş katibi Antonio Quterreş İsrail ordusunun Rəfah şəhərində çadır düşərgəsinə zərbə endirməsini kəskin pisləyib və zorakılığın dayandırılmasını istəyib. Quterreş əlavə edib ki, Qəzzada bir dənə də olsun təhlükəsiz yer qalmayıb. Almaniya hökuməti Qəzza əhalisinə əlavə humanitar yardım olaraq daha 39 milyon avro vəsait ayırıb. Qəzzanın səhiyyə xidmətinin məlumatına görə, İsrailin əks-hücumunda 36 mindən çox fələstinli həlak olub, ölənlərin sayına həm mülki şəxslər, həm də döyüşçülər arasında olanlar daxildir.

**Siyasi ekspert Ramiyə Məmmədova** Türkiyə lideri Ərdoğanın bu mövzuda fikirlərini yada salaraq qeyd edir ki, Fələstinin 1967-ci il sərhədləri daxilində müstəqil dövlət olaraq tanınması regiondakı bütün qarşıdurmaların öhdəsindən gələ bilər. Onun fikrincə, Fələstinin müstəqilliyinin tanınması ilə axan qanlar durdurula bilər: “Bu tarixi münaqişədə qalib tərəf yoxdur. Bu gün HƏMAS məğlub olsa belə fələstinlilər başqa bir hərəkat yaradacaqlar. İsrail ordusunun son hücumları çadır düşərgələrini bombardman etməkdir və bu da onun müttəfiqləri tərəfindən belə pislənilir. Məncə, Netanyahu hökuməti ciddi zərbə aldı və hakimiyyət dəyişikliyi labüddür. Çünki İsrail 7 oktyabrda haqlı ikən indi prosesi özünə qarşı çevirdi və dünya onun dinc əhalini öldürməsini tənqid edir, ABŞ silah yardımını dayandırır, Avropa İttifaqı bəyanatlar verir, Beynəlxalq Cinayət Məhkəməsi isə Netanyahu barəsində həbs orderi çıxarır. Yəni HƏMAS İsraildə dinc insanları girov götürməklə, 1200 vətəndaşını öldürməklə, festivala hücum etməklə hamı tərəfindən qınandı, amma İsrail ordusunun da etdikləri əndazəyə sığmır, 35 mindən çox günahsız insan, çoxu da uşaq və qadın olmaqla, öldürülüb”.

**Siyasi təhlilçi Avropa dövlətlərinin Fələstinin müstəqilliyini tanımağa başlamasını müsbət addım hesab edir, lakin həlledici qərarlar saymır:** “Bütün dünya bunu etməlidir. Fələstin xalqı öz dövlət müstəqilliyini qazanmalı, beynəlxalq ictimaiyyət də tanımalıdır. Bundan sonra masaya oturmalı və tərəflər Qəzza, əl-Əqsa məscidi və digər məsələlər haqda danışmalıdırlar. İsrail də bu şəraitdə sabit ölkə ola bilməz. Hazırda HƏMAS-la yanaşı Hizbullah, Yəmən husiləri və Suriyada olan qüvvələr də İsrailə zərbələr endirir. Ona görə davamlı gərginlik və münaqişə bölgəni hər zaman təhdid altında saxlayacaq. Bu baxımdan cənab Ərdoğanın təklifi etdiyi yol ən optimal variantdır...”

❑ Emil SALAMOĞLU,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

# Rusiyanın Xankəndidə konsulluq açması təhlükəlidirmi - obyektiv baxış

Şimal qonşumuzdan verilən mesajın pərdəarxası; ekspertdən ilginc açıqlamalar; **Elçin Mirzəbəyli:** “Yaxşı olardı ki, həm Türkiyənin, həm də Rusiyanın Azərbaycandakı səfirliklərinin konsulluq idarələri gələcəkdə Şuşada, Xankəndidə, yaxud hansısa başqa bir yerdə deyil, məhz Ağdamda açılsın”

**Rusiyanın Xankəndidə konsulluq açmaq istəməsi barədə məlumat yayılandan sonra mediada və sosial şəbəkələrdə bununla bağlı müxtəlif rəylərə, şərhlərə rast gəlinir.**

Öncə onu nəzərə çatdıraq ki, Rusiyanın Xankəndidə yaxın vaxtlarda baş konsulluğunun açılışı üçün hazırlıqlara başlayacağı və bu işdə Azərbaycanın dəstəyinə ümid etdiyi barədə açıqlamanı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Qriqori Karasin verib. “İkitərəfli məsələlərdən yaxın gələcəkdə Xankəndidə baş konsulluğun açılmasını qeyd edərdim və bu işdə dəstəyinizə ümid edirəm”, - Karasin görüş zamanı bildirib. Onun sözlərinə görə, baş konsulluğun 2024-cü ildə açılması yaxşı olardı. “Bu, bizə qarşılıqlı konsulluq üzrə fərqi aradan qaldırmağa imkan verəcək”, - Karasin əlavə edib.

Bəzi şərhçilər “axı Rusiyanın Xankəndidə vətəndaşı yoxdur, oradakı sülhməramlıları da bölgəni tərk edib, bu halda niyə konsulluq açmaq istəyir” şəklində sual qoyurlar. Əlbəttə, tamamilə haqlı sualdır. **Politoloq Elxan Şahinoğlu** isə deyib ki, Türkiyənin Şuşada konsulluq xidməti açılmadan Rusiyanın Qarabağda konsulluq xidmətinin açılması doğru deyil. “Görünür, Kreml konsulluq xidməti vasitəsilə yenidən Qarabağa qayıtmaq və itirdiyi mövqeləri bərpa etmək istəyir. Bu isə Azərbaycanın maraqlarına cavab vermir”, - deyə Elxan Şahinoğlu qeyd edib.

Xatırladaq ki, bundan öncə qardaş Türkiyənin də Xankəndidə konsulluq aça bilməsi haqda qeyri-rəsmi məlumatlar yayılmışdı. O da məlumdur ki, 2020-ci ilin 44 günlük savaşından, Şuşanın azad da edilməsindən az sonra Türkiyənin Şuşada baş konsulluq açacağı haqda xəbərlər yayılmışdı. 2022-ci ilin oktyabrında isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında birbaşa belə demişdi: “Biz də Şuşada Baş Konsulluq açırıq...” Şuşanın azad edilməsindən artıq 4 ilə yaxın vaxt keçsə də bu məsələ hələ də həllini tapmayıb.




Xatırladaq ki, Rusiyadan verilən baş konsulluq mesajı yeni deyil. Keçən ilin fevralında Moskvada Milli Məclisin sədri Sahibə Qafarova olmaqla bir qrup azərbaycanlı deputatla görüşən Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko iki ölkə arasındakı münasibətlərin inkişafını yüksək qiymətləndirməklə yanaşı, baş konsulluq məsələsini irəli sürmüşdü. “Rusiyanın Azərbaycanda baş konsulluğunun açılması müttəfiqliyin bariz nümunəsi olardı”, - deyən Matviyenko konkret ünvan göstərməsə də, bu dəfə onun komitə rəhbərinin dili ilə Xankəndi mesajı səsləndi. İndi ortada iki sual var: Türkiyənin Şuşa və Xankəndidə konsulluq açması nə zaman baş tutacaq? İkinci sual, Rusiyanın Xankəndidə konsulluq açması hansısa təhlükə törədirmi? Nəzərə alsaq ki, konsulluq hərbi yox, diplomatik təsisatdır, bu halda ehtiyatlı olmağa ehtiyac varmı?

**Siyasi şərhçi, Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyası sədrinin müavini Elçin Mirzəbəylinin də bu mövzuda maraqlı şərhi var:** “Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Qriqori Karasin istənilən məsələ ilə bağlı öz arzusunu ifadə edə, hətta Ruisya hökumətinin baxış bucağını da dilə gətirə bilər. Amma nəzərə almaq lazımdır ki, bu, ilk növbədə rusiyalı senatorun fikirləridir və Azərbaycan-Rusiya münasibətlərinin indiki səviyyəsi imkan verir ki, bu kimi məsələlər senatorlar, yaxud deputatlar vasitəsilə mesaj formasında ifadə edilməsin, xarici işlər nazirlikləri, yaxud hökumətlər səviyyəsində müzakirə olunsun. Digər tərəfdən, Karasin, daha öncə də qeyd etdiyim kimi, öz istəyini dilə gətirib və bütövlükdə Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbərinin fikirləri bir tərəfin arzusunu ifadə edir. Məsələ ilə bağlı Azərbaycanın rəsmi dairələri hələlik hər hansı bir münasibət bildirməyiblər. Əgər ehtiyac duysaydılar və yaxud bu qəbildən olan açıqlamalarda milli maraqlarımıza zidd olan hansısa məqam aşkar etsəydilər, istisnasız olaraq, ölkəmizin mövqeyini ifadə edərdilər”.

**E.Mirzəbəyli xatırlatdı ki, son 4 il ərzində gözümüzün önündə, bir zamanlar xəyalımızdan belə keçirə bilmədiyimiz hadisələr cərəyan edib:** “44 günlük müharibədə tariximizin ən şanlı qələbəsindən sonra bu böyüklükdə uğuru həzm edə, bir addım irəlini görə bilməyənlərin bəsit və bəzən utancverici ritorik suallarının şahidi olduq. Atasının məzarının yerini unudanlar, qonşusu ilə çəpər davası edənlər, siyasi səhnədə gah bir, gah da digər qütbə üz tutanlar, Fransanın, ABŞ-ın, hətta İranın ölkəmizin qanuni hüquqları əleyhinə atdığı qərəzli addımlara susanlar "bəs Xankəndi, Xocalı, Əsgəran... nə oldu" sualları ilə ağız-ağıza verdilər. Vətənimizin bətnindəki qara yara kəsilib atıldıqdan, ərazilərimizdə işğalçı qüvvələrin, separatçıların mövcudluğuna son qoyulduqdan, Xankəndidə Azərbaycan bayrağı dalğalandıqdan sonra isə Ali Baş Komandanımızdan, Ordumuzdan, xalqımızdan üzr istəmək əvəzinə, Rusiya sülhməramlıları ilə bağlı məsələləri gündəmə gətirdilər. “Sülhməramlılar getməyəcəklər, Rusiya Qarabağda qalacaq” və daha nələr deyilmədi. Rusiya sülhməramlıları ölkəmizi tərk etdikdən sonra bu xroniki narazılıq daşıyıcıları yenə dillərini dincə qoyub, siyasi səhnədən, sosial şəbəkələrin antimilli virus daşıyıcısı olan səhifələrindən getmək əvəzinə, indi də rusiyalı senatorlardan birinin subyektiv fikirlərindən asılıblar. Yəni bu adamlar hələ də anlaya bilmirlər ki, 30 ilə yaxın işğala son qoyan, 200 illik təfriqə ocağını söndürən İlham Əliyev nəyi necə, nə vaxt edəcəyini yaxşı bildiyi kimi, Azərbaycanın milli maraqlarını, suverenliyini qorumağı, torpaqğımızın hər qarışı uğrunda qətiyyətlə mübarizə aparmağı hər kəsdən yaxşı bacarır?!" **Analitik bildirdi ki, hazırda Rusiyanın Xankəndidə konsulluğunun açılması ilə bağlı hər hansı bir müzakirə getmir:** “Əgər getsəydi, bu barədə ictimaiyyətə məlumat verilərdi. Son nəticədə Azərbaycanda diplomatik nümayəndəliyi olan istənilən ölkənin əsaslandırılmış müraciət və qarşılıqlı razılaşma əsasında bu və ya digər suveren ərazimizdə konsulluq açması mümkündür və bu qəbildən olan istək və arzuların Azərbaycanın suveren hüquqlarını məhdudlaşdırıcağını iddia etmək gülüncdür. Hazırda ölkəmizin Rusiya Federasiyasının Sankt-Peterburq və Yekaterinburq şəhərlərində konsulluqları var. Yaxud Azərbaycanda Tatarıstan və Dağıstan respublikalarının daimi nümayəndəlikləri fəaliyyət göstərir. Məgər bunlar Ruisyanın, yaxud Azərbaycanın suveren hüquqlarını məhdudlaşdırır? Göründüyü kimi, Azərbaycanın Rusiyanın iki şəhərində konsulluğu var, amma Rusiyanın Bakıdan başqa ölkəmizin heç bir regionunda konsulluq xidməti yoxdur. Yaxşı olardı ki, gələcəkdə ölkəmizin Rusiyanın Dağıstan, Tatarıstan, Başqırdıstan, Çuvaşıstan və digər federasiya subyektlərində də konsulluqları fəaliyyət göstərsin. Digər tərəfdən, hər hansı bir ərazidə konsulluq xidmətinin təsis edilməsi o zaman özünü doğrulda bilər ki, həmin ərazi məskunlaşsın, orada insanlar yaşasınlar, iş yerləri açılsın, iqtisadi, mədəni və digər əlaqələr üçün zəmin olsun. Hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş quruculuq-bərpa işləri gedir. Məcburi köçkünlərin öz doğma ocaqlarına qayıdışı prosesi davamlı şəkildə həyata keçirilir və bu proses, işğalçıların yaşayış məntəqələrimizi yerlə bir etdiyini nəzərə alsaq, zaman aparacaq”.

**Türkiyənin Şuşada səfirliyinin açılmasına gəldikdə, E.Mirzəbəyli qəzetimizə dedi ki, bu da məskunlaşma ilə bağlı məsələdir:** “Şuşada və ətraf ərazilərdə kifayət qədər insan yaşamalıdır ki, konsulluğun fəaliyyəti üçün də zəmin yaransın. Məsələ ilə bağlı öz subyektiv baxış bucağımı da ifadə etmək istəyirəm: Yaxşı olardı ki, həm Türkiyənin, həm də Rusiyanın Azərbaycandakı səfirliklərinin konsulluq idarələri gələcəkdə Şuşada, Xankəndidə, yaxud hansısa başqa bir yerdə deyil, məhz Ağdamda açılsın. Məlum olduğu kimi, burada uzun müddət Türkiyə-Rusiya Birgə Müşahidə Mərkəzi fəaliyyət göstərib və bölgədə təhlükəsizliyin təmin olunması üçün işbirliyində olublar. Bu mərkəz eyni zamanda Türkiyə-Rusiya əməkdaşlığına da töhfə verib. Bu baxımdan, rəmzi olaraq, hər iki ölkənin konsulluq idarəsinin Ağdamda açılması beynəlxalq hüququn norma və prinsiplərinin təmin edilməsi ilə nəticələnən azsaylı nümunələrdən biri ilə bağlı əməkdaşlığı simvolizə edə bilər”.

**Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

# Azərbaycanın adı ürək xəstəliklərinə görə niyə ön sırada yazılır - reallıq, yoxsa...

## Kardioloq İdris Xəlilov: "Son 30 ildə ürək-damar xəstəliklərindən ölümlər qlobal miqyasda 60 faiz artıb, amma ölkəmizlə bağlı məlumat yanlışdır"

**Azərbaycan ürək-damar xəstəliklərindən ölüm hallarına görə dünyada ikinci yerdədir. "World Statistics" resursunun hesabatında belə deyilir. Dərc olunan cədvəldən görünür ki, ölkəmiz hər 100 min nəfərə 388 ölüm faktı ilə yalnız Tacikistandan geri qalır. O da cəmi bir ölüm faktı fərqi ilə. Tacikistanda bu göstərici 389-dur. İlk onluğa Özbəkistan (354 ölüm), Ukrayna (305 ölüm) və Belarus (282 ölüm) da daxildir. Siyahıda Rusiya 27-ci, Qazaxıstan 35-ci, İran 54-cü, Türkiyə isə 117-ci yerdədir. Yaponiya, Fransa və Cənubi Koreya daha az riskli ölkələr kimi sıralanır və reytinqdə ən aşağı üç yeri tutur: 181-ci, 182-ci və 183-cü. Bu statistika Azərbaycanda səhiyyə sistemindən tutmuş sosial həyata qədər vəziyyətin necə olduğuna dair müəyyən təsəvvür yaradır.**

Qeyd edək ki, ötən il də buna bənzər statistik məlumat yayılmışdı. Sosial şəbəkələrdə ürək-damar xəstəliklərinin dünya ölkələrindəki miqyasını əks etdirən statistikada bildirilirdi ki, kişilərdə ürək-damar xəstəliklərindən hər 100 min nəfərə düşən ölüm hallarına görə Azərbaycan dünyada 1-ci yerdədir. İlk "beşlik"də həmçinin Tacikistan (2), Belarus (3), Özbəkistan (4) və Ukrayna (5) yer alıb.

Gürcüstan 18-ci, Rusiya 21-ci, Ermənistan 26-cı, İran 66-cı, Türkiyə isə 117-ci yerdədir. Ən sonuncu yerdə isə Yaponiya (182) və Cənubi Koreyadır (183). Yəni yaponlar və cənubi koreyalılar arasında infarktdan ölənlər minimumdur. Qadınların eyni statistikasına əsasən isə Azərbaycan 2-ci sırada qərar tutub. Başqa sözlə, bu göstərici üzrə də antirekordçuyuq.

Dünyada məşhur və ən çox istinad edilən mənbələrdən biri olan "worldlifeexpectancy"nin məlumatlarına görə də, ölkəmizdə sözügedən xəstəliklərlə bağlı vəziyyət heç də ürəkaçan deyil. Belə ki, ürək, qan-damar sistemi xəstəliklərindən baş verən ölüm hallarına görə ölkəmiz ötən il Tacikistandan sonra ikinci yerdə qərarlaşmışdı. Ölkəmizin 183 ölkə sırasında reytinq dərəcəsi 388.41 olub. Rusiya isə 204.50 reytinq dərəcəsi ilə siyahıda 27-ci yerdə qərarlaşıb və bununla ürək, qan-damar sistemi xəstəliklərinə görə Azərbaycanla yanaşı ən riskli ölkələrdən biri hesab edilib. Ən riskli ölkələr sırasında Ukrayna 4-cü, Gürcüstan 24-cü, Ermənistan 28-ci olub. Türkiyə isə riskin daha az olduğu ölkə kimi dəyərləndiriləræk reytinqdə 127-ci yerdə qərarlaşıb.

Bakı Baş Səhiyyə Mərkəzinin 2023-cü il üçün yaydığı hesabata görə, təkcə yanvar ayı ərzində 901 ölüm hadisəsindən 613-ü ürək və qan-damar xəstəlikləri səbəbindən baş verib. Bu isə ümumi ölüm hadisələrinin 68%-nə bərabərdir. Odur ki, mərkəz bu cür həyati risklərdən qorunmaq üçün vətəndaşları ilkin səhiyyə xidmətlərindən vaxtında yararlanmağa, tibbi müayinələrdən keçməyə çağırır. Statistikaya görə, dünyada və o cümlədən də Azərbaycanda ölüm hallarına görə ürəyin işemik xəstəlikləri (tromb, infarkt, stenokardiya və s.) birinci yerdədir. Bunun başlıca səbəblərindən biri kimi insanların vaxtlı-vaxtında həkim müayinələrindən, tibbi yoxlanışlardan keçməməsi göstərilir.



**Tanınmış kardioloq İdris Xəlilov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, "World Statistics" resursunun hesabatı doğru deyil:** "Kiçik bir araşdırma aparsaq, başqa bir statistik məlumatlar qarşımıza çıxır. Ürək-damar xəstəliklərindən ölüm halları Mərkəzi və Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində daha yüksəkdir. Xüsusilə bu göstərici üzrə lider mövqeləri Ukrayna, Belarus və Qazaxıstan tutur. Bu ölkələrdə ürək-damar xəstəliklərindən ölüm nisbəti hər 100 000 nəfərə 8 000-dən çox ölüm nisbətinə malikdir. Dünya Ürək Federasiyasının da hesabatına nəzər salsaq, görərik ki, son 30 ildə ürək-damar xəstəliklərindən ölümlər qlobal miqyasda 60% artıb. Yüksək ölüm göstəriciləri Lesoto və Konqo kimi Afrika ölkələrində, həmçinin İndoneziya və Laos kimi Cənub-Şərqi Asiya ölkələrində də müşahidə olunur. Azərbaycan ürək-damar xəstəliklərindən ölüm hallarına görə dünyada 75-ci yerdədir. Ümumiyyətlə, Avropa, ABŞ Azərbaycanla bağlı əksər vaxtlarda yalan məlumatlar verir. Azərbaycanda insanların həyat şəraiti heç də Afrikadan, ya da Orta Asiyadan geridə deyil. Əksinə, Avropa ölkələri ilə eyni səviyyədədir. 45 ildir həkim kimi fəaliyyət göstərirəm. Son 20 ildə Azərbaycanda insanların orta ömrü indiki kardiologiya nailiyyətləri sayəsində 20-30 il artıb. Heç bir Avropa ölkəsi bizim ölkəmizdəki statistikanı bizdən yaxşı bilə bilməz. Çünki onların bu statistikanı aparmağa imkanları yoxdur. Öz müşahidələrimə görə deyə bilərəm ki, 80-70-ci illərdə insanlar bu qədər uzun ömürlü deyildilər. İndi istənilən ürək xəstəliklərinin diaqnostikası Azərbaycanda mümkündür. Həmçinin son illərdə artıq pulsuz aparılır, sığorta öz öhdəsinə götürür. Avropa ölkələrində kardioloqun növbəsinə düşmək üçün altı ay vaxt lazım olur. İndi bəzi Avropa ölkələrindən pasiyentlər Azərbaycana gəlir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Qurban bayramı gəlməmiş qiymətlər artdı - heyvan bazarında nə baş verir?

## Xalid Kərimli: "Ətin bahalaşması birbaşa Qurban bayramı ilə əlaqəli deyil, yayda..."

**Azərbaycanda heyvan bazarında qiymətlər artıb, xüsusilə də xırdabuynuzlu heyvanların qiymətində fərq hiss olunur. Bunun Qurban bayramı ilə bağlı olduğu deyilir. Qeyd edək ki, iyunun 16 və 17-də Azərbaycanda Qurban bayramıdır.**



Digər tərəfdən, Rusiyanın Samara şəhərində xırdabuynuzlu heyvanlar arasında yayılan brüsellyoz xəstəliyi ilə əlaqədar bölgədə karantin tətbiq edilib. Bununla əlaqədar xəstə heyvanların müalicəsi, kəsilməsi və satılması qadağan olunub. Ekspertlərə görə, ölkəmiz ət istehlakı baxımından idxaldan asılıdır. Gürcüstan bazarına tətbiq olunan məhdudiyyətdən sonra Rusiya bazarında yarana biləcək problem də qoyun ətinin qiymətində artıma səbəb ola bilər. Yəni Azərbaycana idxal olunan qoyun ətinin qiyməti bahalaşa bilər. Bu heyvanların da idxalda böyük hissəsi Rusiya və Gürcüstanın payına düşür.

Rusiya mediası yazır ki, xırdabuynuzlu heyvanlar arasında brüsellyoz xəstəliyi böyük sürətlə yayıldığından regionda karantin elan edilib. Xəstə heyvanların müalicəsi, keçi və qoyunların sağılması qadağan edilib.

Onu da qeyd edək ki, ötən il Azərbaycana 25 milyon 102 min dollar dəyərində 320 min 543 baş diri qoyun idxal edilib ki, bu da əvvəlki illə müqayisədə say baxımından 65% və ya 125.9 min baş, dəyər baxımından isə 58% və ya 9.2 milyon dollar artıq deməkdir. Məlumdur ki, Gürcüstan Azərbaycanın əsas xırdabuynuzlu heyvan idxalı bazarıdır. Belə ki, 2023-cü ildə Gürcüstandan ölkəyə 16 milyon 414 min dollar dəyərində 218 min 191 baş diri qoyun idxal edilib. Əvvəlki illə müqayisədə Gürcüstandan diri qoyun idxalı 24% və ya 42,3 min baş artıb. Ötən il Gürcüstandan Azərbaycana diri qoyun idxalı ölkəyə gətirilən ümumi qoyun idxalının 68%-nı təşkil edib.

**İqtisadçı ekspert Xalid Kərimli mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, ətin bahalaşması bir başa Qurban bayramı ilə əlaqəli deyil:** "Amma Qurban bayramı ərəfəsində əvvəlki həftələrlə müqayisədə daha baha olur. Amma Qurban bayramı ilə əlaqəli bahalaşma bir-iki həftə sonra aradan qalxır. Ət bahalaşmasının əsas səbəbi bir sıra məqamlarla bağlıdır. Xırdabuynuzlu heyvanların sayına baxsaq, yəni 2015-2016-cı illərlə müqayisə etsək, həmin dövrdə saxlanılan keçi qoyunun sayı 8,7-8,8 milyon baş idi. 2023-cü ilin axırına baxanda isə xırdabuynuzlu heyvanların sayı 7,8 milyon başa düşdüyünü görürük. Təqribən 9 min baş heyvan azalıb, bu da 10 faizdən çox azalma deməkdir. Əhalinin ət istehlakına baxanda 2015-2016-cı illə müqayisədə 2023-2024-cü illərdə bizim ət istehlakımız (qoyun, keçi əti) əksinə 20 faiz bahalaşıb. Bir tərəfdən qoyunların sayı azalıb, digər tərəfdən daha çox tələbat artıb. Çünki əhalinin sayı artıb, bu da istehlakı artırır".

**İqtisadçı əlavə edib ki, qoyunun, keçinin azalmasının səbəbi həm də otlaq sahələrinin azalmasıdır:** "Otlaq sahələrinin azalması da iki səbəbdən olur. Birincisi, əkinçilik, bağçılığın salınması. Bunların hamısı qoyunların otlaq yerinin azalmasına gətirib çıxarıb. Bakıətrafı sahələrdə də çox yer çöllük idisə, indi evlər tikilib. Yəni otlaq yerlərinin sayı bu səbəblərdən azalıb. Otlaq yerlərinin azalmasının ikinci səbəbi isə şoranlaşma, iqlim dəyişikliyi, kultivasiya sistemlərinin düzgün edilməməsi ilə bağlıdır, bu da torpağın şoranlaşmasına səbəb olan amillərdəndir. Göyçay, Ağdaş, Ağsuda torpaq ağappaqdır. Digər tərəfdən insanların şəhərə meyllənməsi ilə ev təsərrüfatı ilə məşğul olmurlar. Təbii ki, qiymətlərin artması insanların bu işə yenidən qayıtmasına həvəsləndirəcək. Amma bunu bir müddət sonra görəcəyik. Digər bir məqam həmin periodda həm də yemin bahalaşmasıdır. Otlaq bahalaşır, yem bahalaşır, bununla da xərc artır. May-iyunda ot ucuzdur deyirik, heyvandarlıqla məşğul olan təkcə may-iyunda məşğul olmur ki, qış ayları da var. Xərclər də çoxdur, tələbat da yuxarıdır".

**Ekspert qeyd edir ki, qiymətlərin artmasına bir səbəb də Gürcüstanda ət ixracına qoyulan məhdudiyyətdir:** "Rusiyada brüssellyoz yayılıb, hələ də təsiri olmasa da, xəbərin yayılması bazarlara təsirini göstərir. Bizim idxalımız əsasən Rusiya, Gürcüstandır. 2022-ci ildə 192 min baş xırdabuynuzlu heyvan idxal olunub. 2023-cü ildə bu 312 min baş artıb. Gürcüstandan 2022-ci ilə 162-170 min baş heyvan gətirilmişdisə, keçən il 212 min baş diri qoyun-keçi idxal olunub. Əvvəldə dediyim kimi, tələbata əsasən qiymətlər artıb. Yay aylarında daha da artacaq".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Yağıntının kəndliyə vurduğu zərər getdikcə artır - çıxış yolu

## Hələlik Azərbaycanda aqrar sığorta ilə əhatə olunma səviyyəsi qaneedici deyil

**May ayı başa çatmaqda olsa da, Azərbaycanın əksər ərazilərində yağıntılı hava şəraiti davam edir. Aprelin sonu-mayın əvvəlindən bəri ölkədə, həmçinin qonşu ölkələrdə qeydə alınan güclü yağışlar çoxsaylı sel və daşqınlara səbəb olub. Nəticədə yüz hektarlarla sahələri su basıb, fermer və fərdi təsərrüfat sahiblərinə böyük zərər dəyib.**

Bir çox ərazilərdə aramsız yağışlar yetişməkdə olan meyvə-tərəvəz məhsullarını zay edib, digər yerlərdə sel əkinləri yuyub, bir sıra ərazilərdə isə yağış əkilən bitkiləri xəstəliklərə qarşı vaxtında dərmanlamağa imkan verməyib. Qərb zonasından qəzetimizə verilən məlumata görə, kartof sahələrinin vaxtında dərmanlanmaması nəticəsində xəstəlik sahələrə böyük zərər vurub, kartofun yaşıl gövdəsi qaralaraq çürüməyə başlayır.

Aran və cənub bölgələrində taxıl və digər əkin sahələrini sel suları yuyub, şimal bölgəsində taxılın çiçəkləyən vaxtı düşən yağışlar məhsuldarlığın kəskin azalmasına gətirib çıxarıb. Mərkəzi Aran, cənub bölgələrində meyvələrin yetişən vaxtı güclü yağışların yağması ərik, gilas və gilanar meyvələrinin çatlayaraq çürüməsinə səbəb olub.

Xatırladaq ki, aprel ayının ilk yarısında müşahidə olunan isti küləklər xüsusilə şimal bölgəsində ağacların çiçəyini yandıraraq, bar tutumunu dəfələrlə azaldıb. Sosial şəbəkələrdə Quba-Qusar-Xaçmaz bölgəsindən yayılan görüntülərdən aydın olur ki, əsasən gilas, gilənar kimi meyvələrin çiçəklərinin ləçəkləri vaxtından əvvəl qaralıb, çiçəklərdə bar tutumuna imkan olmayıb. Bir çox fermerlər bölgədə meyvə istehsalının kəskin azalacağını bildirirlər.

Aprelin sonlarından başlayan və indi də davam edən kəskin yağıntılı, soyuq hava şəraiti bu dövrdə çiçəkləyən payızlıq meyvələrə, taxıl, tərəvəz, bostan əkinlərinə böyük zərər vurur. Davamlı yağışlar taxılın çiçək dövrünə təsadüf etdiyinə görə fermerlər məhsulun az olacağını gözləyirlər.

Yağıntılı hava yalnız bitkiçiliyə deyil, arıçılığa da zərər vurur. Belə ki, yağış arı ailələrini "işləməyə" qoymur, ailələr məhv olur, xəstəliklər qazanır.

Yağış və küləkli hava həmçinin təbii biçənək sahələrində otun sürətlə böyüyərək "yatmasına", biçin üçün yararsız hala gəlməsinə səbəb olub. Suvarılan sahələrdə əkilən yonca sahələrini yağışa görə biçmək mümkün olmur. Əksər bölgələrdə bu səbəbdən bu mövsümdə ot bağlamalarının kəskin bahalaşacağı gözlənilir.

Onu da qeyd edək ki, Azərbaycanda kənd təsərrüfatında aqrar sığorta mexanizmi tətbiq olunur. Dövlət 41 növ bitkinin sığortasına dəstək verir: sığorta haqqının yarısını qarşılayır. Rəsmi məlumata görə, bu ilin yanvar-mart aylarında Aqrar Sığorta Fondu (ASF) tərəfindən sığortalı fermerlərə təsərrüfatlara dəymiş zərərlər üzrə 1 milyon 752 min manat sığorta ödənişi edilib.

"Yeni Müsavat"ın fonda istinadən verdiyi məlumata görə, sığorta ödənişlərinin 1 milyon 434 min manatı bitkiçilik, 318 min manatı heyvandarlıq üzrə edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə sığorta ödənişlərinin məbləği 2,2 dəfə artıb. Bitkiçilik üzrə sığorta ödənişləri 2,5 dəfə, heyvandarlıq üzrə ödənişlər isə 42 faiz yüksəlib.

Xatırladaq ki, 2023-cü ili yanvar-mart aylarında Aqrar Sığorta Fondu tərəfindən sığortalı fermerlərə ümumilikdə 799 min manat sığorta ödənişi edilib.



Bu ilin I rübündə ASF tərəfindən 323 min hektar əkin sahəsi və 882 baş kənd təsərrüfatı heyvanları sığortalanıb. Ötən ilin eyni dövrü ilə müqayisədə sığortalanan əkin sahələri 22 min hektar və ya təqribən 7 faiz artıb. Hesabat dövründə bitkiçilik sığortası üzrə 6 milyon 815 min manat, heyvandarlıq təsərrüfatlarının sığortası üzrə 537 min manat olmaqla, ümumilikdə 7 milyon 352 min manat sığorta haqqı toplanıb. Bu dövrdə ən çox sığortalanan kənd təsərrüfatı bitkiləri payızlıq buğda və payızlıq arpa sahələri, eləcə də fındıq bağları olub. Sığortalanan təsərrüfatlar üzrə verilmiş sığorta təminatının həcmi 255 milyon manatdan artıq olub.

Məlumata görə, birinci rübdə ən çox sığorta ödənişləri fırtına, dolu və subasma hadisələri üzrə həyata keçirilib. Regionlar üzrə ən çox sığorta ödənişləri Füzuli, Şəki və Ağdam rayonlarındakı təsərrüfatlarda olub.

**Mayın əvvəllərində Aqrar Sığorta Fondu hava şəraitinin kəskin dəyişməsi və təbiət hadisələrinin artması ilə əlaqədar olaraq sığortalı fermerlərə müraciət edib. Müraciətdə əkinlərini və təsrrüfatlarını sığorta etdirmiş fermerlərdən təbiət hadisələrinin təsərrüfatlara vurduğu zərər barədə operativ şəkildə Aqrar Sığorta Fonduna məlumat vermək xahiş olunur**: "Sığorta müqavilələrinə əsasən, fermer hadisə baş verdikdən keçən 10 gün ərzində Aqrar Sığorta Fondunun 1651 Çağrı Mərkəzinə məlumat verməlidir. Təsərrüfatlara zərər dəyməsi barədə müraciətlərin vaxtında edilməsi dəymiş zərərin qısa zamanda və dəqiq dəyərləndirilməsinə imkan verir, həmçinin hadisələrin araşdırılması və ödənişlərin həyata keçirilməsi prosesini sadələşdirir".

Xatırladaq ki, bu ilin ilk rübü ərzində Aqrar Sığorta Fondu tərəfindən fermerlərə dolu hadisələri üzrə 503 min manat, sel-subasmaya görə isə 101 min manat sığorta ödənişi edilib.

**ASF bu ildən etibarən pambıq əkini ilə məşğul olan fermerlər üçün pambıq sahələrinin yağışdan sığortalanmasını baza zərfinə aid edib. Fondun yaydığı məlumata görə, Azərbaycanda kənd təsərrüfatında mühüm bitkilərdən sayılan pambıq sahələrinin sığortası mövsümü başlayıb**: "Pambıq Azərbaycan iqtisadiyyatında, o cümlədən ölkədən ixracda əhəmiyyətli paya malikdir. Azərbaycanda təqribən 100 min hektara yaxın ərazidə pambıq yetişdirilir, bu sahədə 200 min nəfərdən çox əhali çalışır. Ölkədə pambıq 20-yə yaxın rayonda əkilir, ən çox pambıq becərilən rayonlar Saatlı, Ağcabədi, Sabirabad, Beyləqan və İmişlidir. Eyni zamanda pambıq Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında ilk beşlikdədir.

Sərfəli bitki olması ilə yanaşı, pambıq həm də təbiət hadisələrinə qarşı həssasdır. Ölkəmizdə dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta pambıq sahələrini çoxsaylı risklərdən qoruyur. Bura dolu, sel-subasma, qasırğa, fırtına, leysan yağışları, ildırım vurması, vəhşi heyvanların hücumu, 3-cü şəxsin hərəkətləri və sair hallar aiddir. Dövlətin sığorta haqqına göstərdiyi 50 faizlik dəstək sayəsində fermerlər pambıq sahələrini cüzi məbləğ ödəməklə sığorta edə bilərlər. Pambıq əkini ilə məşğul olan fermer və təsərrüfatlar əkinlərini bəyan etdikdən sonra sığorta üçün müraciət etməlidir".

Fond məlumat verir ki, hər il baş verən təbiət hadisələri pambıq sahələrinə zərər vurur. Belə ki, 2022-2023-cü illərdə Yevlax, Saatlı, İmişli, Ağcabədi, Sabirabad və Bərdə rayonlarında sel-subasma, yağış, Ağdam və Ağcabədi rayonlarında isə dolu hadisələri pambıq sahələrinə böyük zərər vurub.

**ASF-nin nümayəndəsi Əli Əhmədovun "Yeni Müsavat"a dediyinə görə, son bir ayda hava şəraiti ilə əlaqədar sığorta hadisəsinə görə müraciətlər kəskin artıb**: "Son bir ayda 35 rayon üzrə 400-dən çox sığorta hadisəsi barədə müraciət daxil olub, bu proses davam edir. Müraciətlər arpa, buğda, pambıq, tütün, günəbaxan sahələri, albalı, gilas, xurma, fındıq, alça, badam, şaftalı, nektarin, gavalı, armud, tütün, qoz, ərik, üzüm bağlarına zərər dəyməsi ilə bağlıdır. Hazırda müraciətlərin qeydiyyatı davam edir. Dəyən zərərin qiymətləndirilməsi məhsul yığımı zamanı həyata keçiriləcək, çünki sığorta məhsula görə aparılır".

**Hava şəraitinin yaratdığı fəsadların aqrar istehsalçılara bir müsbət təsiri olub ki, o da onların öz əkinlərini sığorta etdirmələridir**: "Yağışın zərəri artıqca sığortaya müraciətlər də kəskin artıb. Çox sayda fermer indi müraciət edir ki, sahələrini sığortalatsın. Biz, əlbəttə, bütün müraciətləri qanunauyğun formada dəyərləndiririk, hamı ilə görüşüləcək, müvafiq sənədləşmə aparılacaq. Lakin hamı bilməlidir ki, sığortalanmadan əvvəl dəyən zərəri sığorta qarşılamır. Sığorta müqaviləsi imzalanana qədər yağışlar və yaxud digər hadisələrdən əkinə, məhsula dəyən zərər indi bağlanacaq müqavilələrin predmeti olmayacaq".

ASF rəsmisi bildirir ki, fərdi təsərrüfatlardakı əkinləri, bağları da sığorta etdirmək mümkündür. Bunun üçün həmin əkinlərin elektron sistemdə bəyan edilməsi əsas şərtdir.

**Ə.Əhmədovun sözlərinə görə, fermerlərə təklif olunan şərtlər çox əlverişlidir**: "Suvarılan torpaqda 1 ha taxılın yetişdirilməsi minimum 600-700 manata başa gəlir, onun sığortası cəmi 40 manat edir, bunun da yarısını dövlət ödəyir. Sığorta haqqı və ödənişi sahədən əldə edilən məhsula görə hesablanır. Bir çox hallarda fermerlər az sığorta haqqı ödəmək üçün məhsuldarlığı aşağı göstərirlər. Məsələn, 1 hektar ərik bağından əldə edirsə 25 min manat, göstərir 15 min. Sonra bağa zərər dəyib məhsul məhv olanda real məhsula görə deyil, göstərdiyi məhsula görə sığorta ödənişi hesablanır. Son iki ildə bu kimi hallar çox olub. İndi-indi vəziyyəti real qiymətləndirənlər, məhsul və ondan əldə olunan gəliri düzgün qeyd etməyin faydasını nəzərə alanlar çoxalır".

Qeyd edək ki, meyvə bağları üzrə iki sığorta var. Biri dövlət tərəfindən verilən təminat, bir də könüllü. Könüllü təminat keyfiyyət təminatıdır. Yəni hava şərtlərinin məhsulun keyfiyyətinə mənfi təsirindən sığortalanma könüllüdür. Bunu adi bir misalla belə izah etmək olar: tutalım ki, yağış armud bağında məhsulu tamamilə məhv etməyib, amma onun üzərində yaraların, xalların yaranmasına - yeni keyfiyyətinin aşağı düşməsinə səbəb olub. Bu halda keyfiyyət sığortası varsa, məhsulun satışından əldə olunan gəlirin məbləğindəki azalmanı sığorta qarşılayır.

Hələlik Azərbaycanda aqrar sığorta ilə əhatə olunma səviyyəsi qaneedici deyil. Ümumi sahələrin 30 faizi belə sığorta ilə əhatə olunmayıb. Bu isə hava şəraiti üzündən fərdi təsərrüfatlara, fermerlərə dəyən zərərin çox böyük hissəsinin kompensasiya olunmayacağı deməkdir...

**❑ Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Qarabağ Universitetinə dekanlar seçildi



**Xankəndi şəhərində fəaliyyətə başlayan Qarabağ Universitetinə fakültə dekanları (proqram rəhbərləri) seçilib.**

Bu barədə APA-ya Elm və Təhsil Nazirliyindən xəbər verilib.

Belə ki, Qarabağ Universitetinin rektoru Şahin Bayramovun əmri ilə Pedaqoji fakültəyə dekan Kəklik Gözəlova, Sosial elmlər fakültəsinə dekan Elmar Mustafayev, İncəsənət fakültəsinə isə dekan Türkər Qasımzadə təyin olunub.

Pedaqoji fakültənin dekanı Kəklik Gözəlova filologiya elmləri namizədidir. Kəklik Gözəlova Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsində bakalavr və magistr təhsili alıb. ABŞ-ın Corc Vaşinqton Universitetində strateji layihə idarəetməsi üzrə magistratura təhsili alan Kəklik Gözəlova bir müddət Azərbaycan Dillər Universitetində baş müəllim, dosent işləyib. Müxtəlif illərdə Bakı Ali Neft Məktəbində İngilis dili və humanitar fənlər kafedrasının müdiri, Davamlı təhsil fakültəsinin dekanı işləyən Kəklik Gözəlova daha sonra Qərbi Kaspi Universitetində Filologiya və tərcümə fakültəsinin dekanı və prorektor olaraq fəaliyyətini davam etdirib. Bu günədək Azərbaycan Universitetində Tərcümə və filologiya kafedrasının müdiri vəzifəsində çalışıb.

Sosial elmlər fakültəsinin dekanı Elmar Mustafayev beynəlxalq münasibətlər tarixi üzrə fəlsəfə doktorudur. Elmar Mustafayev İtaliyanın Sapienza Universitetinin Beynəlxalq münasibətlər fakültəsində magistr təhsili alıb. O, 2016-cı ildə Xəzər Universitetində Siyasi elmlər və beynəlxalq münasibətlər kafedrasında akademik koordinator və müəllim, 2019-2021-ci illərdə isə Siyasi elmlər və fəlsəfə kafedrasının müdiri işləyib. Xəzər Universitetindəki fəaliyyəti dövründə nüfuzlu "Jean Monnet" layihəsinin qalibi və koordinatoru olub. 2021-2024-cü illərdə Təhsildə Keyfiyyət Təminatı Agentliyində Akkreditasiya və lisenziya şöbəsinin müdiri vəzifəsində çalışıb. Hazırda Xəzər Universitetinin müəllimidir. Elmar Mustafayev İtaliya Siyasi Assosiasiyasının (SISP) Rusiya və postsovet məkanı üzrə daimi qrupunun üzvüdür.

İncəsənət fakültəsinin dekanı Türkər Qasımzadə "Cadenza" orkestrinin bədii rəhbəridir. Bakı Musiqi Akademiyasını bəstəkarlıq ixtisası üzrə bitirən Türkər Qasımzadə ABŞ-ın Manhetten Musiqi Məktəbində eyni ixtisas üzrə magistratura, Sinsinnati Universitetində isə doktorantura təhsili alıb. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində rektorun müşaviri olan Türkər Qasımzadə həm də Bakı Musiqi Akademiyasında müəllim işləyir. Türkər Qasımzadə ixtisası üzrə Küveytdə yerləşən Orta Şərqin Amerika Universiteti, Azərbaycan Dövlət Milli Konservatoriyası, ADA Universiteti, Sinsinnati Universitetində professor olaraq çalışıb. O həmçinin Moldovanın Musiqi, Teatr və Rəqs Akademiyası, ABŞ-ın Manhetten Musiqi Məktəbi, San-Fransisko Dövlət Universiteti və Norveçin Stavanger Universitetində ustad dərsləri keçib.

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

**Dalana dirənmiş Ukrayna-Rusiya müharibəsinin hərbi yolla həlli mümkünsüz görünür. Artıq rəylər ona doğru yön alır ki, məsələ yaxın aylarda - payızda gözlənilən seçkilər ərəfəsində və yaxud ondan dərhal sonra siyasi və ya inqilab yolu ilə həllini tapa bilər.**

# Putindən ilginc Ukrayna açıqlaması - "parlament inqilabı" anonsu, yoxsa...

## Savaş həm siyasi, həm də hərbi baxımdan yeni, kritik mərhələyə qədəm qoyur

Belə rəylər var ki, Zelenski seçkilərdə devriləcək, Ukraynada rusiyayönlü qüvvə hakimiyyət idarəçiliyini götürəcək və bundan sonra anlaşmalar baş verə bilər.

Rusiya prezidenti Vladimir Putin bu kontekstdə ilginc açıqlamalar və əslində anonslar verib.

**"Ukraynada yeganə legitim hakimiyyət parlament və Ali Radanın spikeridir", - deyə Vladimir Putin bildirib:** "Görünən və mənə məruzə olunan ilk şey odur ki, Ukrayna konstitusiyasında səlahiyyətlərin uzadılması nəzərdə tutulur, ancaq Radanın səlahiyyətləri uzadılır və Ukrayna prezidentinin səlahiyyətlərinin uzadılması barədə heç nə deyilmir. Ukrayna konstitusiyasının 111-ci maddəsi var ki, ali hakimiyyətin səlahiyyətləri parlamentin spikerinə verilir, xüsusən də hərbi vəziyyət şəraitində parlamentin səlahiyyətləri uzadılır". (APA)



**Putin əlavə edib ki, Ukrayna dövlətçiliyi prezidentlik yox, parlamentli respublika ideyasına əsaslanır:** "Konstitusiyanın özünün və onun əsasında qəbul edilən hüquqi aktların bu şəkildə qurulması tamamilə məntiqlidir".

Rusiya prezidenti deyib ki, Ukraynada hakimiyyətin legitimliyi sualına yekun cavabı Ukraynanın siyasi və hüquqi sistemi verməlidir və "bu o qədər də çətin deyil". O həmçinin deyib ki, Rusiya təhlükəsizlik zonası yaradır.

Bunu Putin Rusiya qoşunlarının Xarkov istiqamətində irəliləməsi haqqında danışarkən bildirib. Onun sözlərinə görə, Xarkov istiqamətində hadisələr Qərbin hərəkətləri ilə təhrik edilib.

Putin vurğulayıb ki, uzaqmənzilli silahlardan istifadə ediləcəyi təqdirdə Rusiya Silahlı Qüvvələri yenidən sanitar zona ilə bağlı qərar qəbul etməli olacaq.

**Rusiya lideri NATO baş katibi Yens Stoltenberqin Rusiya ərazisinə yüksək dəqiqlikli raketlərlə zərbə endirilməsi bəyanatına da münasibət bildirib:** "Stoltenberq Rusiya ərazisində yüksək dəqiqlikli silahların tətbiqindən danışarkən bilməyə bilməz ki, bu cür zərbələr Ukrayna hərbçilərinin iştirakı olmadan, yalnız kosmik vasitələrdən istifadə etməklə həyata keçirilə bilər. NATO ölkələrinin nümayəndələri nə ilə oynadıqları barədə özlərinə hesab verməlidirlər. Ukraynada muzdlular var, biz bunu yaxşı bilirik. Yüksək dəqiqlikli silahlara kim xidmət edir? Təlimatçılar muzdlular şəklindədir və onlar itkilər verirlər", - deyə Putin NATO ölkələrinin Rusiya Federasiyası ərazisini vurmaq çağırışları haqqında suala cavab verərkən bildirib.

**Rusiya prezidenti əlavə edib ki, polyaklarla bərabər Avropa ölkələrinin kontingenti Ukrayna ərazisinə girsə, başqaları gedəcək, polyaklar isə heç vaxt getməyəcək:** "Ukrayna ərazisində kimin olmasından asılı olmayaraq, biz yenə də lazım bildiyimizi edəcəyik. Hazırda Ukrayna döyüş meydanında vəziyyəti döndərə bilmir və buna nə qədər çox cəhd etsə, bir o qədər çox itki verəcək".

Onu da qeyd edək ki, Putin bu açıqlamanı verdikdən sonra Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrel Aİ-yə üzv dövlətlərin müdafiə nazirlərinin görüşündə bildirib ki, müharibə qanunlarına görə, Ukraynanın Rusiya ərazisinə zərbə endirmək hüququ var. O deyib ki, bu yolda tərəfdaşların rəsmi Kiyevə verdiyi silahlar işə salına bilər.

Borrelin sözlərinə görə, Ukrayna tərəfi indiki halda özünümüdafiə hüququndan istifadə edir.

Niderland və Estoniyanın müdafiə nazirləri Kaysa Ollonqren və Hanno Pevkur da bu fikirləri dəstəkləyiblər...

Görünən budur ki, Ukrayna-Rusiya savaşı həm siyasi, həm də hərbi baxımdan yeni, kritik mərhələyə qədəm qoyur. Bəs Putinin anons etdiyi versiyanın anlamı nədir? O, bununla hansı mesajları verdi?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov Rusiya kimi dövlətə qarşı müharibədə Ukraynanın qalib gəlməsini mümkünsüz hesab edir:** "Rusiya-Ukrayna müharibəsi haqqında kimin nə fikirdə olmasından və nə deməsindən asılı olmayaraq, Ukrayna bu müharibəni onu başlaması ilə uduzdu. Bu müharibəni layihələndirənlərin əsas məqsədi də bu idi. Müharibə başlayandan Azərbaycanda da gəlişi gözəl çıxışlar edən "siyasi şərhçilər" Ukraynanın Rusiyanı məğlub edəcəyinə, Rusiyanın bu müharibənin yekununda bir dövlət kimi parçalanaraq çökəcəyinə dair nağıllar uydururdular. Elə bir çoxları bu gün də eyni eyforiya ilə bu nağılları danışmaqda davam edirlər. İki ildən artıq davam edən müharibəni bu şəkildə şərh edənlər, onun dərində olan köklərindən xəbərsizdilər və ona görə də müharibənin səbəblərini Ukraynanın Qərbə meyllənərək, Rusiyanın təsirindən çıxmağa cəhd göstərməsi fonunda, ruslarla ukraynalıların arasında yaranan nifrətin son həddə çatması kimi izah edirlər. Bəli, bu səbəb də ortadadır, lakin bu səbəb aysberqin suyun üzərində görünən hissəsi qədər hissəsidir, məsələnin alt qatında isə bundan bir neçə dəfə böyük səbəblər dayanır.

Bu müharibə dünya güclərinin iqtisadi və biznes maraqlarını bölüşdürmək yolunda tərtib etdikləri böyük planın bir fraqmentidir. Dediklərimizin sübutu ortadadır. Ukraynanı körükləyib bu müharibəyə təhrik edən Qərbin iki ildən çoxdur ki, Ukraynaya necə hərbi yardım etdiyini bütün dünya görür. Bu yardımlarla bütün səviyyədə olan resursları Rusiyadan 5-6 dəfə zəif olan Ukrayna kimi bir ölkənin Rusiya kimi nüvə dövlətinə qalib gəlməsi mümkün deyil. Qərbin oyunları artıq yekunlaşmağa doğru gedir - Ukrayna sürətlə geri çəkilir, ruslar isə hər gün yeni torpaqlar işğal edərək irəliləyirlər. Məqsəd bəllidir. Rusiya Xarkovu, Odessanı işğal edib, Ukraynanın dənizə çıxışını qapatmağı və Moldova ərazisinə çıxaraq, Prednistroviyanı öz nəzarətinə götürməyi hədəfləyir. Əgər Qərb Rusiyanın bu planının reallaşdırılmasının qarşısını almaq məqsədilə Ukraynaya ciddi hərbi yardımlar göstərməyə qalxarsa, o halda Rusiya çəkinmədən taktiki nüvə silahından istifadə edəcək. Qərb Rusiyanın belə bir addım atacağından çox əndişəlidir və ona görə də bu müharibəni tədricən Ukraynanın məğlubiyyəti ilə yekunlaşacaq sonluğa doğru aparır.

Baxın, bu gün Qərb İranın İsrailə istiqamətləndirdiyi yüzlərlə pilotsuz uçuş aparatlarını və atdığı raketləri İsrail ərazisinə çatmamış havada məhv edirsə, nədən Ukraynada minlərlə insanın ölümünə səbəb olan raketlərin və pilotsuz uçuş aparatlarının heç olmasa Ukrayna ərazisində vurulmasını təmin edə biləcək hava hücumundan müdafiə sistemlərini ona tam şəkildə vermir?"

**Sabiq nazir proseslərin Ukrayna üçün dalana dirəndiyini düşünür:** "Qərbin bu gün Rusiyaya tətbiq etdiyi sanksiyalar demək olar ki, işləmir. Bu sanksiyalar Rusiya ilə iqtisadi əlaqələrin ön qapısını qapatsa da, Qərbin biznes dairələri məmnuniyyətlə Rusiya ilə "arxa qapıdan" işləyirlər. Rusiya bu gün sanksiyalarla qadağan olunmuş bütün məhsulları və hətta hərbi sənaye üçün zəruri olan yüksək texnologiyalara aid məmulatları həmin o "arxa qapıdan" alıb gətirir və bu hesaba da ayaqdadır.

Ukrayna bu gün heç olmasa müəyyən bir ərazidə dövlət kimi qalmaq istəyirsə, nə qədər gec deyil, kapitulyasiya aktına qol çəkməlidir".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev isə Putinin çıxışlarında əsəbi göründüyünü qeyd etdi:** "Putinin verdiyi son açıqlamalar Ukrayna cəbhəsində vəziyyətin dəyişə biləcəyi narahatlığından irəli gəlir. Rusiya üçün uğurlu yaz əməliyyatları son günlər səngiməyə başlayıb, Ukraynanın isə silah-sursat ehtiyatlarında nəzərəçarpacaq artımlar hiss olunur. Bu gedişatla müqavimətin artacağı və əks-hücum planlarının reallaşacağı, eyni zamanda uzunmənzilli raketlərdən istifadə ediləcəyi artıq real görünməyə başlayıb. İndiyədək ABŞ və Qərb Ukrayna arsenalında olan uzunmənzilli raketlərdən istifadəyə imkan vermirdi. Amma artıq bu addıma yaşıq işıq yandırılmağa başlayıb, Rusiya ərazisində mülki sənaye, neft və neft emalı obyektləri istisna olmaqla, digər hərbi və hərbiyə yaxın olan obyektlərin vurulması məqsədilə hətta yenidən uzunmənzilli raketlər verilməyə başlayıb. O səbəbdən Putin bufer zonanın genişləndirilməsi ilə bağlı işlər görüləcəyini deyir. Çünki bilir ki, proses sürətli şəkil ala bilər və ən azı son aylar əldə etdiyi əraziləri artıqlaması ilə itirə bilər, həmçinin hava hücumları vasitəsilə Rusiyanın içərilərinə doğru intensiv raket və təyyarə vasitəsilə zərbələr endirilə bilər. "F16"nın Ukraynaya veriləcəyi məsələsi ciddiləşib və artıq Ukrayna pilotlarının ikinci qrupu ABŞ təlimatçıları tərəfindən sürətləndirilmiş şəkildə təlimlər keçməyə başlayıblar. Bunların hamısı Rusiyanı çox narahat etdiyindən atılacaq addımlara cavab olaraq daha kəskin münasibət göstərəcəklərini deyir. Rəsmi Moskvanın ümid etdiyi kimi, Ukraynada siyasi böhranın yaşanmaması da bəzi planları pozub. Ölkədə prezident seçkilərinin qeyri-müəyyən vaxta təxirə salınması və bu hadisədən dolayı siyasi partiyalar arasında hər hansı ciddi qarşıdurmaların yaşanmaması, fikir və fəaliyyətlərin yalnız ölkənin müdafiəsinə və ərazilərin azad olunması istiqamətinə yönəldilməsi, Qərbdən yardımların intensiv daxil olması müharibənin gedişatında köklü dəyişikliklər etməsə də, prosesin uzun müddət davam etməsinə bir növ təminat verəcək. Yəni bu yaxınlarda İsveçin hərbi qüvvələrinin baş komandanın verdiyi bəyanatın reallaşmaq üzrə davam edəcəyi gözlənilir. Belə ki, baş komandan demişdi ki, Ukrayna-Rusiya müharibəsinin qalibi olmayacaq, eyni zamanda bu müharibənin nə vaxt bitəcəyi də bilinmir. Bu proqnozu indiyə kimi müəyyən fərqlərlə bir çoxları verib. Belə perspektiv isə rəsmi Moskvanı heç cür təmin etmir. O səbəbdən Putinin açıqlamalarında bir sıra əsəbi notlar da mövcud idi".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Volodindən Zelenskiyə ittiham: "Hakimiyyəti ələ keçirib..."

**"Vladimir Zelenskinin prezidentlik müddəti başa çatıb, onun dövlət başçısı vəzifəsi tutması Ukrayna konstitusiyasına ziddir". Musavat.com Rusiya mediasına istinadla xəbər verir ki, RF-nin Dövlət Dumasının sədri Vyaçeslav Volodin Volodimir Zelenskinin hakimiyyəti ələ keçirərək dövlət cinayəti törətdiyini iddia edib.**

"Zelenskinin hakimiyyəti qanunsuzdur. Ukraynada hakimiyyət böhranı var. Prezident Zelenskinin səlahiyyət müddəti başa çatıb. Ukrayna konstitusiyasında deyilir ki, prezidentin səlahiyyətlərini seçkilərdən başqa yolla uzatmaq mümkün deyil. Qalan hər şey dövlət cinayətidir. Zelenskinin etdiyi də məhz budur", - Volodin Telegram kanalında vurğulayıb.

O xatırladıb ki, Ukrayna konstitusiyasına görə, yeni prezident seçilənə və vəzifəyə başlayana qədər Ukrayna prezidentinin səlahiyyətlərinin icrası Ali Radanın sədrinə həvalə edilməlidir. "Lakin onun spikeri Ruslan Stefançuk dünən yeni vəzifəsini yerinə yetirməkdən imtina edərək izah etdi ki, keçmiş prezident Zelenskinin onları ardıcıl şəkildə icra etməyə davam etməsi lazımdır. Bu, Ukrayna konstitusiyasına ziddir və hakimiyyətin ələ keçirilməsidir", - Volodin qeyd edib.

❑ **Musavat.com**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Mental xəstəliyimiz - azyaşlılara niyə maşın sürmək öyrədirik?

## Balaca uşağı öncə qucağımızda, sonra sükan arxasında sürücülüyə öyrədirik, sonda isə...

**Xüsusən yay fəslinin gəlişi ilə yolda-izdə azyaşlı övladlarına maşın sükanını etibar edən valideynlərin sayında bir artım müşahidə olunur. Dəniz sahilində, boş yollarda, rayon yerlərində valideynlər nəyə görəsə xüsusən də azyaşlı oğlan övladlarına maşın sürməyi öyrədirlər. Öncə ibtidai bilik və vərdişləri mənimsəyən uşaqlar az sonra müstəqil maşın idarə etmək sevdası ilə valideynlərinin maşınını qaçırırlar. Dəfələrlə azyaşlının öz valideyninin maşınını qaçırdığı zaman qəzaya uğradığı, adam vurduğu ilə bağlı məlumatlar yayılıb. Azərbaycan qanunvericiliyində bu məsələ necə əks olunur? Övladlarımıza hansı yaşdan sonra maşın etibar etməliyik?**



**Hüquqşünas Ərşad Hüseynov**un bu məsələ ilə bağlı maraqlı bir şərhi var. Onun sözlərinə görə, 18 yaşına çatmamış şəxsin sürücülük vəsiqəsi ola bilməz. Belə şəxsin avtomobil sürərək qaydanı pozması və ağır nəticəli qəza törətməsi Cinayət Məcəlləsinin (CM-in) 263-1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilər. Lakin CM-in bu maddəsi üzrə məsuliyyətə yalnız yaşı 16-nı keçmiş şəxslər cəlb edilə bilərlər. Deməli, 15 yaşında uşaq qəza törədərək 5 adamı da öldürsə, bu maddə üzrə cinayət məsuliyyətinə cəlb edilə bilməz. Nəqliyyat vasitəsini qaçırma məsələsi isə tamam başqadır. Bu əmələ görə CM-in 185-ci maddəsi cinayət məsuliyyəti nəzərdə tutur. Bu cinayətin subyekti olmaq üçün 14 yaş kifayətdir. Özü də uşaq öz atasının maşınını da ondan icazəsiz sürüb aparsa, bu əməl CM-in 185-ci maddəsinin tərkibini yarada bilər. Deməli, 15 yaşlı uşaq valideyninin avtomobilini qaçıraraq ağır qəza törədərsə, həmin qəzaya görə yox, məhz avtomobili qaçırmaya görə cinayət məsuliyyətinə cəlb ediləcək: "Özü də bu halda avtomobilə qəzada 1000 manatdan 7000 min manatadək ziyan dəyərsə, həmin uşaq 2 ildən 5 ilədək, 7000 manatdan çox ziyan dəyərsə, 5 ildən 10 ilədək azadlıqdan məhrum edilə bilər. Yəqin ki, uşağının törətdiyi qəzada özünü təmizə çıxarmaq istəyən valideyn bunu bilsə, belə bəyanat verməz və səmimi şəkildə etiraf edər ki, maşınımı uşağa elə özüm vermişəm, özü də bu birinci dəfə deyil, dəfələrlə vermişəm. Əslində uşağın öz valideyninin avtomobilini qaçırmasını sübut etmək və həmin uşağı buna görə cinayət məsuliyyətinə cəlb etmək də tutarlı sübutlar olduqda mümkündür. Amma belə məsuliyyətsiz valideynlər onsuz da öz yeniyetmə övladlarının cinayət xarakterli əməllərinə görə maddi məsuliyyət daşıyırlar. Yəni bu hadisədə zərərçəkmişlərə dəyən mənəvi və maddi ziyanı kompensasiya etməyə borcludurlar. Bununla belə, bu tipli hadisələr çox təhlükəli yanaşmalardan xəbər verir. Bəzi valideynlər öz yeniyetmə övladlarına avtomobil idarə etməyi öyrədirlər. Əslində yolda belə yeniyetməyə avtomobil verilməməsi şərti ilə bu, pis iş deyil. Lakin bəziləri bir az da qabağa gedərək həmin yeniyetməyə mütəmadi olaraq avtomobili yolda sürməyə imkan yaradırlar. Nəticəsi isə bəzən belə ağır faciələrdə ifadə olunur".

Ə.Hüseynov eyni zamanda bu məsələ ilə bağlı qanunvericiliyimizdəki ciddi boşluğa da toxunub. Onun bildirdiyinə görə, avtomobil sahibinin öz avtomobilini sürücülük hüququ olmayan şəxsə (o cümlədən övladına) verməsi və onun inzibati xəta xarakterli qəza törətməsi halında bu avtomobilin sahibinin inzibati məsuliyyəti var. İXM-in 152-3.3-cü maddəsində belə hala görə avtomobil sahibi 180 manat cərimə edilir. Amma avtomobil sürücülük hüququ olmayan şəxsə verildikdə və həmin şəxs cinayət xarakterli qəza törətdikdə avtomobil sahibinin heç bir cinayət məsuliyyəti yoxdur. Açığı, şəxsən mən repressiv tədbirlərin sərtləşdirilməsinin tərəfdarı deyiləm. Amma belə hadisələr barədə eşidəndə bu kimi məsuliyyətsiz avtomobil sahibləri üçün cinayət məsuliyyətinin labüdlüyü aşkar görünür. Məncə, belə əməl üçün cinayət məsuliyyəti nəzərdə tutulsa, məsuliyyətsiz valideynlər öz avtomobillərini yeniyetmə uşaqlarına verməmək üçün daha ciddi olarlar.

Nəqliyyat ekspertləri isə bildirirlər ki, sürücülük vəsiqəsinin alınması üçün hər kəsə müəyyən yaş məhdudiyyəti qoyulur. Belə ki, qanunvericiliyə görə, avtobus sürücülərinin də yaş məhdudiyyətləri var. Çünki onlar təcrübəli olmalıdırlar. Bəzi yerlərdə vərdişləri öyrənmək və hərəkətin təhlükəsizliyinə mane olmamaq şərti ilə valideynlər uşağın yanında olanda övladlarına maşın sürməyi öyrətməlidirlər. Bu elə də çətin məsələ deyil. Amma avtomobil yollarında, traslarda və nəqliyyat vasitələrinin çox olduğu yerlərdə sürücülük vəsiqəsi olmayan azyaşlıların maşını sürməsinə icazə verilmir. Hazırda nəqliyyat vasitələrinin sahibləri maşını sürürlər və yaxud müəyyən zamanətlə başqa adamlar da sürə bilər. Eyni zamanda yanında avtomobil sahibi olan şəxslərin də maşını sürməsinə icazə verilir. Bu şərtlə ki, onun sürücülük vəsiqəsi olsun. Bəziləri azyaşlı uşaqlara maşın verirlər. İndiki halda nəqliyyat vasitəsini sürmək çox rahatdır. Çünki müəyyən avtomatlaşdırılmış sürət qutusudur və yalnız sükanı tuturlar. Amma təhlükə yaranan zaman həmin azyaşlının reaksiyası deyilən vaxt var. Bu zaman müəyyən çətinliklər yaranır. Buna görə də hərəkət sıx olan və nəqliyyat vasitələri başqası ilə kəsilən yerlərdə azyaşlıların maşın sürməsi qadağandır. Bəzi valideynlərə maraqlı gəlir ki övladları sükan arxasında otursun. Bəzi uşaqlar da valideynlərindən xəbərsiz maşını idarə edirlər. Lakin bu böyük təhlükələrə səbəb ola bilər. Əlbəttə, belə halda əsasən valideynlər də cərimələnməlidir. Onlar da məsuliyyətə cəlb edilməlidir. Hər bir valideyn istəyər ki, övladı nəqliyyat vasitəsini idarə etsin. Amma bu zaman müəyyən qayda-qanuna əməl etməlidirlər".

**Qeyd edək ki, Baş Dövlət Yol Polisi İdarəsinin yetkinlik yaşına çatmayanların avtomobil idarə etməsi barədə məlumat yayıb. Məlumatda bildirilib ki, dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, yeniyetmə məktəblilərin müxtəlif vasitələrdən istifadə edərək bəzən gizlin, bəzən də valideynlərinin xəbəri ola-ola avtomobil sürməsi halları mövcuddur:** "Bəzi valideynlər özləri övladlarına avtomobil idarə etməyi öyrətdiklərini, onların hər şeyə hazır olduqlarını zənn edir, amma yol hərəkəti qaydalarını bilməyən uşaqların ekstremal durumlarda aciz qalacaqlarını, məsələnin nə qədər ciddi olduğunu unudurlar.

Bir uşağın avtomobil sürmək həvəsi həm özünün, həm də valideynlərinin arzularını yarıda qoya bilər. Belə hallara qətiyyən yol verməmək olmaz. Bu əməllər qanunla qadağan olunur, məsuliyyət yaradır və eyni zamanda bütün hərəkət iştirakçıları üçün ciddi təhlükə deməkdir. Bir daha valideynləri övladlarını nəzarətsiz qoymamağa çağırırıq".




## "Nar"ın dəstəyi ilə hazırlanan jestdili.az saytının istifadəçilərinin sayı ikiqat artdı

**Ənənəvi olaraq, sərfəli operator kimi tanınan "Nar" sosial layihələri ilə də cəmiyyətə töhfə verməyə davam edir. Bu layihələr sırasında inklüziv cəmiyyət qurmağa yönələn və beynəlxalq mükafata layiq görülən jestdili.az elektron jest dili lüğəti xüsusi önəm daşıyır.**

**"Nar"ın dəstəyi ilə ADA Universitetinin tələbələrinin bu ilin əvvəlində yenilədiyi saytda son üç ayın nəticələrinə əsasən istifadəçi sayı ikiqat artıb. Daha bir statistik göstəriciyə görə isə saytda ən çox axtarılan ifadələr "salam", "ata" və "ana" sözləridir. Sayta marağın artmasının səbəblərindən biri universitetin tələbələrinin təşəbbüsü ilə istifadəçi rahatlığını təmin etmək üçün saytın interfeysinin, dizaynının və axtarış sisteminin təkmilləşdirilməsi və bir çox digər funksiyalarla zənginləşdirilməsidir.**

**Layihənin digər tərəfdaşı olan "Karlara Dəstək" İctimai Birliyinin sədri Kamran Abasov Azərbaycan jest dilini tamamilə pulsuz öyrənməyə imkan verən resursun yalnız eşitmə və nitq məhdudiyyətli şəxslər üçün olmadığını bildirir: "Dörd ildir, fəaliyyət göstərən jestdili.az saytına maraq gündən-günə artmaqdadır. Bu sayt təkcə nitq və eşitmə məhdudiyyətlilər üçün olmadığından hər kəs buradan tam ödənişsiz olaraq faydalana bilər. Hesab edirəm ki, biz bir-birimizi daha yaxşı anlamaqla məhdudiyyətləri aşa və inklüziv cəmiyyət qura bilərik".**

**Qeyd edək ki, daim təkmilləşdirilən elektron lüğət hazırda 4000 sözün və 500 çox işlənən cümlələrin video izahını təqdim edir. 2023-cü ildə Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosasiyası (IPRA) jestdili.az layihəsini əsas götürərək "Nar"ı ən yaxşı korporativ məsuliyyət nominasiyasında birinci yerə layiq görüb.**

**"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

**Rayonlara dincəlməyə gedən vətəndaşların istirahət və əyləncə mərkəzlərində xəsarətlər alması ilə bağlı vaxtaşırı məlumatlara rast gəlirik. Ötənlərdə dəhşətli faciələr olması, attraksionların qırılması, hovuzda elektrik cərəyanı vurması, su nasosunun azyaşlını şikəst etməsi və digər hadisələr baş verib.**

# İstirahət və əyləncə mərkəzlərində təhlükəsizlik problemi - məsuliyyət kimindir?

## Ekspert: "Beynəlxalq təcrübəyə əsasən yeni yoxlama mexanizmi tətbiq olunmalıdır"

Son olaraq Lerikdə istirahət mərkəzinin birində 14 yaşlı yeniyetmə körpüdən yıxılıb. APA-nın məlumatına görə, Bakı şəhərinin Yasamal rayonundan Lerikə istirahətə gedən ailə bədbəxt hadisə ilə üzləşib.

Bakı sakini 2010-cu il təvəllüdlü H.B. ehtiyatsızlıqdan körpü üstündən aşağı düşüb. Yeniyetmə ağır vəziyyətdə Lənkəran rayon mərkəzi xəstəxanasına çatdırılıb. Ona ilkin tibbi yardım göstərilib. Vəziyyətinə uyğun olaraq müalicəsi xəstəxanada davam etdirilir.

İstirahət və əyləncə mərkəzlərində təhlükəsizliklə bağlı ciddi problemlər var. Özümüz də müxtəlif bölgələrdə olarkən bunun şahidi oluruq. Yelləncəklər, mənzərələrə tamaşa etmək üçün qurulan körpülər, kanatlarda təhlükəsizlik tədbirləri standartlardan kənardır. Bəzən kotteclərdə elektrik naqillərinin üstüaçıq olması ilə də rastlaşırıq.



İstirahət və əyləncə mərkəzlərində təhlükəsizlik məsələsinə dair tələblər sərtləşməlidir və buna nəzarət edilməlidir. Bəs bunu kim etməlidir? Həmçinin normal təhlükəsizlik yaradılmaması səbəbindən vətəndaş xəsarət alarsa, ölərsə, bunun məsuliyyəti kimindir?

**Təhlükəsizlik eksperti Orxan Musayev mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, istirahət və əyləncə mərkəzlərində təhlükəsizliyin təmin olunmasına görə məsuliyyət mərkəz rəhbərlərinin üzərinə düşür:** "Belə ki, mərkəz rəhbərləri tərəfindən əyləncə və istirahət mərkəzlərində istifadə olunan attraksionlar və avadanlıqların texniki sazlığına, mütəmadi olaraq dövri texniki müayinələrdən keçməsinə nəzarət olunmalı, yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət olunmalı, eləcə də gigiyena və sanitariya tələblərinə əməl edilməlidir. Mərkəz rəhbərləri tərəfindən istirahət və əyləncə mərkəzlərində olan attraksionların təhlükəsiz istismarına cavabdeh şəxs təyin olunmalıdır. Hər istifadədən öncə və sonra attraksionlar təyin olunmuş xüsusi cavabdeh şəxs tərəfindən yoxlanılmalı və yoxlama nəticələri barədə qeydiyyat jurnallarında qeydiyyat aparılmalıdır. Attraksionların istifadəyə verilməsi üçün onların pasportu olmalı, texniki baxışdan keçirilməli, dövlət reyestrində qeydiyyata alınmalı və istismarına Fövqəladə Hallar Nazirliyinin Sənayedə işlərin təhlükəsiz görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi tərəfindən icazə verilməlidir. Attraksionlarda hər hansı bir təhlükəsiz hal varsa, dərhal onların fəaliyyəti dayandırılmalıdır. Attraksionların idarə olunması xüsusi təlimdən keçmiş operatorlar tərəfindən aparılmalıdır. Onların üzərində təhlükəsizlik və xəbərdaredici nişanlar, lövhələr quraşdırılmalıdır. İnsanlar attraksionlardan istifadə etməmişdən əvvəl operatorlar tərəfindən təlimat keçirilməlidir. Yəni təhlükə barədə məlumat verilməlidir.

Əyləncə və istirahət mərkəzlərində insanların hündürlükdən yıxılma təhlükəsi olan mövcud yerlər çəpərlənməlidir. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydalarının tələblərinə görə 1.8 və daha çox hündürlük mövcuddursa, həmi yerlər 1.1 metr hündürlükdə çəpərlənməlidir".

**Bununla belə, ekspert hesab edir ki, burada valideynlərin də üzərinə xüsusi məsuliyyət düşür:** "Azyaşlıları daim nəzarət altında saxlamaq lazımdır. İstirahət mərkəzində təhlükəsizlik qaydaları sahibkar tərəfindən pozulduqda, insan ölümü olarsa, təbii ki bununla bağlı məsuliyyət həmin sahibkarın üzərinə düşür. Müəssisələrdə elektrik qurğularının istismarı zamanı izolyasiyası zədələnmiş, yaxud qoruyucu xassələrini itirmiş naqillərdən, məftillərdən, mağazalarda isə yemək bişirilməsi üçün məişət elektrik qızdırıcı cihazlarından istifadə etmək qəti qadağandır. Bir çox hallarda kustar üsulla hazırlanmış elektrik cihazlarından və kustar üsulla hazırlanmış attraksion və avadanlıqlardan istifadə olunur. Bu formada onların istifadə olunması qadağandır.

İstirahət və əyləncə mərkəzlərində təhlükəsizlik məsələlərinə dair yoxlamalar daha da sərtləşdirilməlidir və beynəlxalq təcrübə öyrənilməlidir. Beynəlxalq təcrübəyə əsasən yeni yoxlama mexanizmi tətbiq olunmalıdır.

Ticarət və əyləncə mərkəzlərində yanğın təhlükəsizliyi ilə bağlı müvafiq tədbirlər görülməlidir. Yanğın və elektrik təhlükəsizliyinə cavabdeh şəxslər olmalıdır. Normaya uyğun sayda yanğınsöndürücü balonlar təyin olunmalı və onların sazlığına mütəmadi nəzarət olunmalıdır. Ticarət və əyləncə mərkəzlərində su hovuzları daim nəzarətdə olmalıdır. Hər hansı fövqəladə hal baş verərsə, təxliyə planları işlənib hazırlanmalı, hər kəsin görə biləcəyi aydın yerlərdən asılmalıdır. Təxliyə yolları daim maneəsiz və açıq olmalıdır. Ticarət və əyləncə mərkəzlərində fövqəladə hal baş verərsə, mərkəz rəhbərləri və könüllü yanğınsöndürmə dəstələri tərəfindən birinci növbədə orada olan insanların təhlükəsiz şəkildə təxliyə olunması istiqamətində işlər aparılmalıdır".

**Bundan əvvəl Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ- Mədən Nəzarəti Dövlət Agentliyinin Qazan, qaldırıcı və energetika qurğularında işlərin təhlükəsizlik görülməsində nəzarət müfəttişliyinin rəisi Sahil Mənsimov jurnalistlərə açıqlamasında deyib ki, parklarda və əyləncə mərkəzlərində olan istismar müddəti bitmiş attraksionlar təkrar yoxlamalardan keçməsi sahibkarlar tərəfindən mütləq aparılmalıdır. O bildirib ki, müfəttişlik tərəfindən parklarda və əyləncə mərkəzlərində attraksionlarla bağlı yoxlamalar aparılır:** "Parklarda olan attraksionların bir çoxunun istismar müddəti bitir. Bu o demək deyil ki, həmin attraksion sökülür. Müəyyən yoxlamalar və müayinələr aparılır. Onun növbəti müddət üçün yararlı olub-olmadığı müəyyən edilir .Yoxlamaların nəticəsindən asılı olaraq attraksionların fəaliyyətinə icazə verilir. Təhlükəsizliklə bağlı sertifikatlar alınandan sonra həmin attraksionların fəaliyyət göstərməsi məqsədəuyğun hesab edilir. Yoxlama zamanı attraksionla bağlı təhlükəli hal varsa, dərhal onun fəaliyyəti dayandırılır".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



# Masallı xəstəxanasının sabiq direktoru məhkəməsinə xərəkdə gətirildi

**"Masallı rayon mərkəzi xəstəxanası" publik hüquqi şəxsin sabiq direktoru Cəlil Nəzərovun məhkəmə prosesi davam etdirilib. APA-nın yerli bürosunun xəbərinə görə, xəstəlikdən əziyyət çəkən, buna görə azadlığa buraxılan Cəlil Nəzərov Lənkəran Ağır Cinayətlər Məhkəməsinə təcili yardım avtomobilində, xərəkdə gətirilib.**

Lənkəran Ağır Cinayətlər Məhkəməsində mayın 29-da hökm elan olunması gözlənilsə də, proses iyun ayının 5-dək təxirə salınıb.

Qeyd edək ki, ötən ilin əvvəlində "Masallı rayon mərkəzi xəstəxanası" publik hüquqi şəxsin sabiq direktoru Cəlil Nəzərovun məhkəmə istintaqı dayandırılıb. Buna səbəb təqsirləndirilən Cəlil Nəzərovun səhhətinin pisləşməsi olub. Cəlil Nəzərov xəstəliyi ilə bağlı azadlığa buraxılıb.

Bir qədər əvvəl isə Masallı Rayon Mərkəzi Xəstəxanasının 3 il əvvəl həbs edilən baş həkimi Cəlil Nəzərov və onun köməkçisi olmuş Təranə Əliyevanın cinayət işi üzrə məhkəmə istintaqının tamamlandığı elan olunub.

Lənkəran Ağır Cinayətlər Məhkəməsində keçirilən iclasda prokuror təqsirləndirilən Cəlil Nəzərovun 12 il 6 ay, Təranə Əliyevanın isə 9 il azadlıqdan məhrum edilməsini, məhkəmə zalında həbs olunmalarını istəyib.

Həmçinin Cəlil Nəzərovun üzərinə həbs qoyulmuş əmlaklarının da dövlət hesabına müsadirə edilməsi istənilib.

İttihama görə, Cəlil Nəzərovun qeyd olunan vəzifədə işləyərkən tabeliyində olan şəxslə qabaqcadan əlbir olaraq 2007-2020-ci illəri əhatə edən dövr ərzində xəstələrə əlillik dərəcəsinin təyin olunması müqabilində ümumilikdə 321 nəfərdən cəmi 400 min manat pul vəsaitini təkrarən rüşvət qismində almasına, rəhbərlik etdiyi tibb müəssisəsinin maddi-texniki təminatı üçün dövlət büdcəsindən ayrılmış cəmi 275 min manat məbləğində pul vəsaitini mənimsəməsinə, həmin qanunsuz hərəkətlərini ört-basdır etmək üçün müvafiq rəsmi sənədlərin məzmununa bilə-bilə yalan məlumatları daxil etməsinə, eləcə də bu yolla əldə etdiyi qanunsuz pul vəsaitlərini rayon ərazisində özünə məxsus istirahət mərkəzinin inşasına yönəltməklə leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Təranə Əliyevanın Cəlil Nəzərovun köməkçisi vəzifəsində işləyərkən sonuncunun qeyd olunan qanunsuz məqsədlərlə ümumilikdə 34 nəfərdən cəmi 52 min manat rüşvət almasında köməkçi qismində iştirak etməsinə əsaslı şübhələr müəyyən edilib.

Cəlil Nəzərov və Təranə Əliyevaya müvafiq olaraq Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini leqallaşdırma), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2, 311.3.3 (külli miqdarda təkrar rüşvət alma), 313 (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilib. Cəlil Nəzərov barəsində məhkəmənin qərarı ilə həbs, Təranə Əliyeva barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib. İbtidai istintaq zamanı vurulmuş ziyanın təmin edilməsi məqsədilə Cəlil Nəzərova məxsus Masallı rayonu ərazisində yerləşən daşınmaz əmlaklar üzərinə həbs qoyulub.

YENİ MÜSAVAT
N 93 (8466) 30 may 2024

# Keyfiyyətsiz xidmət göstərən internet provayderlər - cəza tətbiq olunmalıdırmı...

## Gələn il Azərbaycanda internetin sürəti 50 Mbit/s-yə çatacaq, hədəflər bəllidir, reallıq isə..; **ekspert:** "Cəza mexanizmi tətbiq olunsa, provayderlər məsuliyyət hiss edəcəklər"

**“2 aydır "Sazz" zəif işləyir. 25 azn vurmağıma baxmayaraq heç 5 azn qədər işləmir. 191 nömrəsinə zəng edib şikayətimizi bildirdik, dedilər peyklə əlaqədardır. Dedim onda modemi qaytarmaq istəyirəm, dedilər olmaz, problem modemdə deyil, peykdədir".**



“Ailəm Beyləqan rayonunda yaşayır. İnternet yox dərəcəsindədir. Qaynar xəttə zəng edirsən, heç bir nəticəsi yoxdur. Heç kim məsuliyyət daşımır”.

“Artıq 2 ilə yaxındır ki, "Flexnet" çox keyfiyyətsiz fəaliyyət göstərir. Hər ay 30 azn ödəməyimizə baxmayaraq üst-üstə toplasaq, ayın 5 günü normal işləyir. Digər günlər ya, ümumiyyətlə internet olmur, ya da daxil olmaq çətinləşir. Özlərinə müraciət etdikdə də bir usta göndərirlər..."

“Bir neçə ay öncə "Citynet"ə qoşulmuşam, amma peşmanam. Hər ay boşuna ödəniş edirəm. Bundan öncə “Ailətv”ə qoşulmuşdum. Ondan da narazı qaldım".

Bunlar Bakı əhalisinin “Yeni Müsavat”ın əməkdaşına “Hansı provayderdən istifadə edirsiniz? Xidmətin keyfiyyətindən razısınızmı” suallarına verilən cavablardan sadəcə bir qismidir. Hər kəsin ətrafında internetin keyfiyyətindən şikayət edən ən azı bir neçə nəfər var. Bəs Azərbaycanda internet provayderlərin keyfiyyəti niyə narazılıq yaradır?

Xatırladaq ki, ötən ilin dekabr ayında rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev “Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri” nin təsdiq edilməsi barədə qərar qəbul edib. Bəs o zamandan bu günə nə dəyişib?

Qeyd edək ki, ölkədə informasiya-kommunikasiya texnologiyaları və rabitə (telekommunikasiya və poçt) sahələrində tənzimləmə və nəzarəti, eləcə də radiospektr idarəçiliyini İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi həyata keçirir. Bu yaxınlarda İKTA bir sıra internet provayderləri ilə görüş keçirib. Görüşün məqsədi Azərbaycanın dünyada internetin sürətinə görə reytinqinin yüksəlməsi üçün xidmət keyfiyyətinin artırılması istiqamətində görüləcək işlərin müzakirəsi və istehlakçı şikayətlərinin azalmasının təmin olunmasıdır. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsində ölkəmizdə sabit genişzolaqlı şəbəkədə bir istifadəçinin internetdən orta istifadə sürətinin 2025-ci ildə 50 Mbit/s-ə, 2025-ci ildən sonra isə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması hədəf indikatoru olaraq müəyyən edilib. Bu hədəfə çatmaq məqsədilə operator və provayderlərin təqdim etdikləri internet xidmətlərinin sürətlərinin artırılması üçün tədbirlərin görülməsinə dair tövsiyələr verilib. Qeyd olunub ki, optik şəbəkə və eləcə də operator və provayderlərin istifadə etdikləri texniki vasitələr sürət artımına tam olaraq uyğundur. Sürət artımının pilot olaraq sınaqdan çıxarılması, nəticələrin İKTA ilə təkrar müzakirə edilməsi təklif olunub.

Görüşdə çıxış edən internet provayderlərin nümayəndələri son zamanlar daşınma xərclərinin, avadanlıqların dəyərinin və infrastruktur qiymətlərinin artırılmasının xərclərin də artmasına səbəb olduğunu qeyd ediblər. Sürət artımının qiymət artımına təsir etməsi ehtimalının obyektiv araşdırılması məqsədilə operator və provayderlər tərəfindən internet xidmətlərinin tariflərinin necə formalaşması barədə agentliyə məlumat verilməsi də müzakirə olunub.

Görüşdə həmçinin telekommunikasiya şəbəkələrinin genişləndirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsində dövlət-özəl tərəfdaşlığı alətlərindən istifadə perspektivləri barədə də danışılıb.

**“Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası”nın (AİKTSA) İdarə Heyətinin sədri ekspert Elvin Abbasov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Azərbaycanda rəqəmsallaşmanın və İKT-nin inkişafı birmənalı şəkildə fundamental məsələlərdən başlamalıdır. Ekspert bunun üçün tələb olunan amillərə aydınlıq gətirib:** “Azərbaycanda sürətli internet, mütəxəssislər olmalıdır. Dövlət qurumları xidmətləri rəqəmsallaşdırmalıdır. Təbii ki, müasir dövrdə internet kommunal infrastrukturun tərkib hissəsidir. Odur ki, internet infrastrukturunun inkişafı zəruri məsələlərdən birinə çevrilib. Bu nöqteyi-nəzərdən ölkə üzrə fiberoptik xətlərin çəkilişi prosesi davam edir. Hazırda "Onlayn Azərbaycan" layihəsi çərçivəsində son mərhələ bitmək üzrədir. Azərbaycanın ucqar rayon və kəndləri sürətli internetlə təmin olunur. Lakin bu məsələnin yalnız bir tərəfidir. Digər tərəfdən, subprovayderlər vətəndaşlara sürətli interneti düzgün şəkildə təmin etməlidirlər. Vətəndaşların rəqəmsallıq üzərində qurulan sosial, biznes əlaqələri, startaplar, rəqəmsal həllərə əlçatanlığı və s. istehlak etdiyi internetlə əlaqəlidir. Fundamental infrastruktur qaydasında olsa da, subprovayderlərin təqdim etdiyi xidmət internetin keyfiyyətinə təsir edir. Əvvəllər vətəndaşların şikayətlərinə baxılmaması, subprovayderlərlə bağlı tənzimləmənin olmaması, cəza mexanizminin tətbiq edilməməsi ilə əlaqədar narazılıq çox idi. Lakin artıq İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) bu məsələlərlə bağlı tənzimləyici gücünü göstərməyə başlayıb. Məsələn, əvvəllər avadanlıqların qeydə alınmaması, subprovayderlərin mənşəyi bəlli olmayan avadanlıqlardan istifadə etməsi ilə bağlı narazılıqlar çox idi. İstismar müddəti bitmiş, nəzərdə tutulmuş sahəni tam əhatə etməyən avadanlıqların istifadəsi ilə bağlı məsələlər artıq həlli tapıb. Yeni rəqəmsal mühit formalaşıb. Artıq provayderlər öz avadanlıqlarını İKTA-ya təqdim edirlər. Agentlik ən azından nəzarəti ələ ala bilib".

**Ekspert cəza mexanizminin zəruriliyinə diqqət çəkib:** “Provayderlərin vətəndaşlara daha yaxşı xidmət etmə məsuliyyətini dərk etməsi üçün cəza mexanizmi olmalıdır. Təəssüf ki, cəza mexanizmi məhkəmə yolu ilə tətbiq olunur. Hesab edirəm ki, bu İKTA-nın öz səlahiyyətində olmalıdır. Qayda pozuntusu aşkarlandıqda qanunla tənzimlənmiş cəza tətbiq olunmalıdır. Belə olan halda provayderlər məsuliyyət hiss edəcəklər. Hələ ki bu məsələ öz həllini tapmayıb. Avadanlıqlar üçün standartların tətbiq olunması da arzuolunan məsələlərdəndir. Söhbət lisenziyaların alınmasından getmir. Sadəcə, Azərbaycana gətirilən avadanlıqlar beynəlxalq standartlara görə zəmanətli olmalıdır ki, vətəndaşlara ucuz və keyfiyyətsiz məhsullarla xidmət verilməsin. Dövlət Gömrük Komitəsi və digər qurumlar da bu prosesin içində olmalıdır. İndiki mərhələdə avadanlıqlar bəyan edilir, lakin standartlara uyğunluq hələ ki yoxdur. Hər bir halda müsbət siqnallar var. Çağrı mərkəzləri fəaliyyət göstərir. Şikayət məsələləri vahid portal üzərindən öz həllini tapıb”.

**Elvin Abbasov provayderlərin kabel xətlərini vətəndaşların mülkiyyətinə müdaxilə edərək çəkmələri ilə bağlı şikayətlərə də münasibət bildirib:** “Düşünürəm ki, tənzimləyici orqanın bu məsələ ilə bağlı da qaydaları olmalıdır. Vətəndaşların evindən xətt keçirsə və vətəndaş o xətti dəyişmək istəyirsə, bu vətəndaşın öz hesabına həyata keçirilir. Bu, qəbuledilməzdir. Dövlətin infrastrukturu vətəndaşın mülkü olan ərazidən keçirsə, maddi xərci dövlət çəkməlidir. Bir sözlə, bir çox məsələdə təkmilləşməyə ehtiyac var. Dövlət qurumunun səlahiyyətlərinin daha da genişləndirilməsi zəruridir”.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**




# Suyun qiymətini Tarif Şurası müəyyən edəcək

**Azərbaycanda su və kanalizasiya şəbəkəsinə qoşulma üzrə tarifləri Tarif Şurası müəyyən edəcək.**

Musavat.com xəbər verir ki, Dövlət Su Ehtiyatları Agentliyindən “APA-Economics”in sorğusuna cavab olaraq verilən məlumata görə, bu, Dünya Bankı Qrupunun “Business Ready” layihəsinin “Kommunal xidmətlər "Su şəbəkəsinə" qoşulma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsində qeyd edilib.

Bildirilib ki, Azərbaycanda Prezidentin 1 may 2024-cü il tarixli müvafiq fərmanı ilə “Su təchizatı və tullantı suları haqqında” Qanununda dəyişikliklərin qüvvəyə minməsi ilə su şəbəkəsinə qoşulma üzrə mühüm iqtisadi islahatın aparılması bu sahədə yeni inkişaf mərhələsinin başlanılmasına və biznes mühitinin əlverişliliyinin daha da artırılmasına böyük imkanlar yaradıb. Yeni islahat nəticəsində qanunvericiliyin tələblərinə əsasən, su şəbəkəsinə qoşulma üzrə prosedurların sayı 13-dən 3-ə, qoşulma müddəti 60 gündən 30 günə endirilib, qoşulma xərcləri sahəsində şəffaf və aydın tənzimləmə mexanizmi ilə bağlı normativ hüquqi baza yaradılıb. Agentliyin rəhbərlik etdiyi “Su şəbəkələrinə qoşulma” işçi qrupunun aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə birlikdə son iki il ərzində intensiv və səmərəli fəaliyyəti nəticəsində müvafiq Yol Xəritəsi uğurla icra olunub, yeni iqtisadi təşəbbüslərin hazırlanması, xüsusilə qanunvericiliyin daha da təkmilləşdirilməsi və asanlaşdırılması istiqamətində kompleks təkliflərin aidiyyəti üzrə təqdim olunması təmin olunub.

Agentlikdə su təchizatı və kanalizasiya sistemlərinə qoşulma üçün Vahid Pəncərə sistemi yaradılıb. Eyni zamanda su şəbəkəsinə qoşulma ilə bağlı xidmət keyfiyyəti üzrə standartların hazırlanaraq qəbulu və tətbiqi, yeni elektron xidmətin formalaşdırılması, məlumatların əlçatanlığının təmin olunması, müasir idarəetmə əsasında aidiyyəti dövlət qurumları ilə inteqrasiya qurulub.

YENİ MÜSAVAT

Son səhifə

N 93 (8466) 30 may 2024

May

# Hindistanda havanın temperaturu rekord həddə çatıb



Hindistanın paytaxtı Nyu-Dehlidə rekord istilər qeydə alınıb. Bununla bağlı Hindistan Meteorologiya Departamenti məlumat yayıb. Bildirilib ki, Dehlinin şimal-qərbindəki Manqeşpur və Narela şəhərətrafı ərazilərində 49,9 dərəcə isti qeydə alınıb. Müşahidə tarixi ərzində ən yüksək temperatur son 24 saat ərzində Yeni Dehli də daxil olduğu Dehli milli paytaxt bölgəsində qeydə alınıb. Həmçinin Racastan əyalətinin şimal-qərbində yerləşən Çuru şəhəri çərşənbə axşamı günü 50,5 dərəcə istiliklə Hindistanın ən isti yeri olub.

## Rusiyada tələbə qızın qaralmaq arzusu yarım qaldı: bədəninin 80%-i yandı



Rusiyanın Sankt-Peterburq şəhərində günəş vannası qəbul edən tələbə qız yanıq xəsarətləri alıb. Günəş vannasından sonra 21 yaşlı qızın bədəninin 80%-i yanıb. Rusiya Mülki Aviasiya Universitetinin tələbəsi olan qız Sankt-Peterburqun Aviaşəhərcik rayonu ərazisində, yataqxananın yaxınlığındakı parkda birbaşa Günəş şüalarının altında uzanıb. Bir saat yarımdan sonra onun halı olduqca pisləşib və təcili yardım çağırıb. Qız yanıq xəsarətləri ilə reanimasiya şöbəsinə yerləşdirilib. Həkimlər qıza dəri səthinin 80%-nin birinci dərəcəli günəş yanığı (dərinin səth qatının zədələnməsi) və ikinci dərəcəli yanıq (dərinin bütün dərinliyinin zədələnməsi) diaqnozu qoyublar. Həkimlər zərərçəkənin günəş kremi çəkib-çəkmədiyini araşdırırlar.



## Psixoloji sağlamlığı yaxşılaşdırmaq üçün beş vərdiş

Makquori Universitetinin (Avstraliya) psixologiya üzrə professoru Nik Titovun fikrincə, gündəlik iş rejiminə sahib olmaq, strateji planlaşdırma vərdişi, sağlam həyat tərzi, müntəzəm ünsiyyət və pozitiv düşüncə psixi sağlamlığı yaxşılaşdıra bilər. Psixoloqun fikrincə, sağlam, pozitiv düşüncə yaxşı psixi sağlamlığın ən mühüm fərdi göstəricilərindən biridir. Sağlam düşüncə özünüzə və dünyaya real baxışdan ibarətdir.

Sağlam həyat tərzi, sağlam qidalar hazırlamaq və yemək, düzgün yuxu rejimi və müntəzəm fiziki fəaliyyət deməkdir. Titov belə vərdişlərin sevinc və həyatdan məmnunluq hissini artırdığını izah edib. Bundan əlavə, fiziki sağlamlıq çox vaxt psixoloji sağlamlığı tələb edir, çünki bu sağlamlıq göstəriciləri biokimyəvi yollarla bağlıdır. Psixi sağlamlığın qorunmasında və gücləndirilməsində başqa bir amil strateji planlaşdırma və gündəlik iş rejiminə sahib olmaqdır. Mütəxəssisin fikrincə, bu cür taktikalara riayət etmək depressiyadan əziyyət çəkən insanların rifahını və həyat keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, narahatlıq səviyyəsini də azalda bilər.

Titov əlavə edib ki, dostları və ailəsi ilə həftədə ən azı dörd dəfə ünsiyyətdə olan insanların psixi sağlamlıqları daha yaxşıdır. Ünsiyyət emosional və intellektual dəstək almağa, həmçinin fiziki təmas üçün təbii ehtiyacı ödəməyə imkan verir.

## Yaponiya kosmosa taxta peyk buraxacaq

Yaponiyalı tədqiqatçılar ağacdan dünyanın ilk kosmik peykini yaradıblar. Onun Kioto Universiteti və ağac emalı şirkəti "Sumitomo Foresty" ilə birlikdə hazırlanması dörd il çəkib. Peykin adı "LignoSat"dır. Onun yaradılması ideyası ətraf mühitə olan qayğıya əsaslanır. Missiyanı başa vurduqdan sonra Yerə qayıdarkən belə bir peyk atmosferə daxil olduqdan sonra tamamilə yanır. Peyk ölçüləri 10 santimetr və qalınlığı 4-5,5 millimetr olan bir kubdur, lakin onun dizaynında alüminiumdan hazırlanmış bir neçə hissə var. Cihazda günəş panelləri də mövcuddur. Onun çəkisi təxminən 1 kiloqramdır. Qeyd olunub ki, peyk vintlər və yapışdırıcılardan istifadə olunmadan ənənəvi yapon texnologiyası ilə hazırlanıb. O, bu il "SpaceX" tərəfindən kosmosa buraxılacaq.

## Elmdə ilk: sağalmayan yaraları viruslarla müalicə etdilər

Qüdsdəki İvrit Universitetinin alimləri heyvanlarda antibiotiklərə davamlı infeksiyaların müalicəsində irəliləyiş olduğunu elan ediblər. Onlar pişiyi əməliyyatdan sonrakı yaraların sağalmasına mane olan və dərmanlara davamlı "Pseudomonas aeruginosa" bakteriyasından xilas edə biliblər. Pişik hündürlükdən yıxılma nəticəsində əməliyyat olunub. Beş yaşlı siam pişiyi mikroorqanizmləri məhv edən spesifik bakteriofaq viruslarının köməyi ilə sağalıb. Onun pəncəsindəki yara 14 həftə ərzində tam müalicə olunub. Alimlərin fikrincə, bu, heyvanlar üçün xilas ola bilər, çünki antibiotiklərə davamlı superbakteriyalar əməliyyatdan sonra ev heyvanlarının 8,5%-də müşahidə olunur.

## Bunları bilirsinizmi?

- Cırcırama cəmi 24 saat yaşayır.
- İlbiz 3 ilə qədər yata bilər.
- Pişiyin hər qulağında 32 əzələ var.
- Dəvəquşunun gözü beynindən daha böyükdür.
- Qayçını Leonarda Da Vinçi icad edib.
- Kəpənəklərin dad reseptorları ayaqlarında olur.
- Dünyada toyuqların sayı insanların sayından çoxdur.
- Hər 2 həftədən bir mədəmiz yeni daxili təbəqə yaratmalıdır, yoxsa o özü özünü həzm edər.
- Qadınlar gözlərini kişilərdən iki dəfə çox qırpır.
- Dolları 293 üsulla xırdalamaq olar
- Anadan olandan ölənə qədər gözlərimiz eyni ölçüdə qalır, qulaqlarımız və burnumuz isə həmişə böyüyür.
- Pişiklər 100-dən çox, itlər isə cəmi 10 səs çıxardırlar.
- Tədqiqatçı radiolokator borusunun yanından keçərkən cibində olan şokoladların əriməsindən sonra mikrodalğalı sobanı icad edib.
- Hər il Yer üzünə ildırımla 10 milyon ton azot gətirilir.
- Təxminən Yer kürəsinin 70%-i su ilə örtülüdür. Bundan yalnız 1%-i içməli su kimi yararlıdır;
- Televiziya ilə ilk hava proqnozu 11 noyabr 1936-cı ildə İngiltərədə verilib;
- 1 damla neft 25 litr suyu yararsız hala salır;
- Orta ölçülü aysberqin çəkisi təxminən 20 milyon tondur;
- Burunu silərkən oradakı təzyiq orta hesabla 8800 paskal olur;
- Sutka ərzində insanın ayağının həcmi 8 faiz dəyişə bilər;
- Dünyada birinci əczaxana Bağdadda açılıb;
- İnsan beyni 20 milyard sinir hüceyrələrindən təşkil olunub və gündə 96 milyon bit informasiya yadda saxlaya bilir. İnsan ölərkən təqribən 150 trilyon bit məlumat xatırlayır;
- İlk metro stansiya 1860-cı ildə Londonda açılıb;
- Ürəyin işləməsini yazan ilk elektrokardioqrafiya cihazını 1903-cü ildə Willem Einthoven icad edib;
- Kəpənəklər dadı ayaqları ilə hiss edir;
- Fil tullana bilməyən yeganə məməlidir.

## Arıqlamaq üçün hansı çörəyi yemək olar?



Mütəxəssislər ən sağlam çörək növünü açıqlayıblar. İnsanların əksəriyyəti arıqlamaq üçün çörəyi pəhrizdən çıxarır. Lakin bu düzgün fikir deyil.

**Bütün taxıl**

Dietoloqların çörəyin faydalılığını qiymətləndirdiyi əsas meyarlardan biri onun tərkibidir. Kəpək unundan hazırlanmış tam taxıl çörəyi arıqlamaq üçün ideal çörək növüdür. Tərkibində taxılın bütün hissələri var. Yüksək səviyyədə lif, B vitaminləri və minerallar təmin edir.

Tam taxıl çörəyi həzmi yaxşılaşdırmağa, qan şəkərinin səviyyəsini sabitləşdirməyə və ürək-damar xəstəlikləri riskini azaltmağa kömək edir.

**Turş çovdar çörəyi**

Çovdar buğda ilə müqayisədə daha çox lif ehtiva edir və turş xəmir bağırsaqlarda faydalı bakteriyaların sayını artırır, onun mikroflorasını yaxşılaşdırır.

**Qlütensiz**

Belə çörəyin əsasını adətən düyü, qarğıdalı və ya qarabaşaq unu təşkil edir. Dietoloqlar bədəninizin kifayət qədər lif və qida maddələri almasını təmin etmək üçün bütün taxıl tərkibli özü olmayan çörəkləri seçməyin vacibliyini vurğulayırlar.

**Mayasız**

Çox vaxt turş xəmirlə hazırlanır, bu da həzmi yaxşılaşdırır.

Ancaq yadda saxlamaq lazımdır ki, bu texnologiya ilə hazırlanmış yüksək keyfiyyətli çörək seçmək asan deyil.

## Bu il güclü qasırğalar ola bilər

ABŞ-ın Milli Okean və Atmosfer Administrasiyasının (NOAA) İqlim Proqnozlaşdırma Mərkəzinin sinoptikləri 2024-cü ildə baş verəcək güclü qasırğa mövsümü barədə xəbərdarlıq ediblər. Bu barədə NOAA-nın rəsmi saytında məlumat verilib. Mütəxəssislərin fikrincə, qasırğa dövrü iyunun 1-dən noyabrın 30-dək davam edəcək. Bu il 17-25 fırtınanın baş verəcəyi ehtimalı var. Alimlərin sözlərinə görə, tipik qasırğa mövsümündə adətən 14-ə qədər fırtına baş verir ki, bunlardan da üçü xüsusilə güclü olur.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500